QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 175 (6375) 28 sentyabr 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Mehriban Əliyeva: Azərbaycan dövlətinin tarixinə həkk olunmuş igid oğullar böyüdüb tərbiyə etmiş valideynlərə təşəkkürümü bildirirəm



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 27 sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Əziz bacılar və qardaşlar! Bu gün biz Vətən müharibəsi şəhidlərinin xatirəsini yad edirik. Şanlı Zəfər naminə həyatlarını qurban vermiş qəhrəmanlarımızı anırıq. Onlar əsl vətənpərvərlik və Vətənə sədaqət nümunəsi nümayiş etdirərək öz qorxmazlığı, cəsarəti, möhkəm iradəsi və ruh yüksəkliyi sayəsində işğalçını darmadağın edib, ölkəmizin ərazi bütövlüyünü bərpa ediblər. Adları əbədi olaraq Azərbaycan dövlətinin tarixinə həkk olunmuş bu cür igid oğullar böyüdüb tərbiyə etmiş valideynlərə təşəkkürümü bildirir, Uca Tanrıdan onlara səbir diləyirəm. Müharibə günlərində həlak olmuş günahsız vətəndaşlarımızın xatirəsini yad edirik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Uca Tanrı hər zaman xalqımızı qorusun!".

# 44 günlük Vətən Müharibəsi qürur tariximizdir!

## Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib




*Bax 4*

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım...

## Yeni Azərbaycan Partiyasının nümayəndələri 27 Sentyabr-Anım Günü ilə əlaqədar Şəhidlər xiyabanlarını və Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

**Bu gün Yeni Azərbaycan Partiyasının nümayəndələri 27 Sentyabr-Anım Günü ilə əlaqədar II Şəhidlər xiyabanını ziyarət edib, Vətən müharibəsində canlarını qurban vermiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edib, məzarlarının önünə...**



*Bax 7*

## İran və Ermənistana növbəti xəbərdarlıq - Müzakirələr niyə nəticəsiz qalır?






**Tahir Budaqov: 27 Sentyabr tariximizin dönüş nöqtəsidir**

**"Bu gün respublikamızda 27 Sentyabr - Anım Günü qeyd olunur. Anım Günündə Vətən uğrunda canlarını fəda etmiş, qəhrəmanlıq göstərərək şəhid olmuş...**

*Bax 8*




## 44 günlük savaşın qəhrəmanları - qazilər döyüş xatirələrini danışır

## İrəvana da gedib çıxacağıq - QAZİLƏR DANIŞDI - SORĞU




*Bax 11*

## Quran Marxuliya: Azərbaycan torpaqları Prezident İlham Əliyevin qətiyyəti sayəsində işğaldan azad edildi



*Bax 13*

## "Ronaldo bunun üçün özünü qurban verdi"



*Bax 16*

# "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir!"

*Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti*

**Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.**



Prezident İlham Əliyevin müraciəti

-Əziz həmvətənlər.

Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əkshücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır. Keçən il dekabrın 2-də mənim Sərəncamımla sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi təsis edilmişdir. İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq. Eyni zamanda, bu gün Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulacaq. Bu da keçən ilin dekabrında mənim Sərəncamımla həll olunan məsələdir. Bakıda, şəhərimizin ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaqdır. Onu da bildirməliyəm ki, bu gün saat 12-də bütün ölkə üzrə bir dəqiqəlik sükut elan ediləcəkdir.



**"Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq"**

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.

Ermənistan döyüş meydanında məğlub olarkən yenə də ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribat törətdi. Yüzdən çox mülki şəxs erməni faşizminin qurbanı oldu. Bizim şəhər və kəndlərimiz müntəzəm olaraq daim atəş altında idi. Ermənistan qadağan olunmuş silahlardan istifadə edirdi, ağ fosforlu bombalardan istifadə edirdi, ballistik raketlərdən istifadə edirdi. Ancaq heç nə bizi dayandıra bilməzdi. Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq.

Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq - öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq mənfur düşmən, - baxmayaraq ki, onların əlində əlverişli mövqelər var idi, ərazinin relyefi onlara böyük üstünlük təşkil edirdi, baxmayaraq ki, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurulmuşdu, - geri getməyə məcbur olmuşdur. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi.

**"Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq"**

44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz münaqişəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır.

44 gün ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə bu gün - Anım Günündə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi.

Bütün digər ölkələr ki, bizə siyasi dəstək göstərdilər, biz onlara da minnətdarıq. Bilirəm ki, xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da ürəyi tarixi Vətəni ilə bir döyünürdü, onlar hər gün gedən döyüşləri izləyirdilər, bizim uğurlarımıza sevinirdilər. Onu da bildirməliyəm ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə qədər mən minlərlə məktub alıram. Həm Azərbaycan vətəndaşlarından, həm dünya azərbaycanlılarından, həm də bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək məktubları alıram, həmrəylik məktubları alıram.

Ardı Səh. 3

# "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir!"

*Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti*

Əvvəli Səh. 2

Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim Qələbəmizlə razılaşıb, bunu qəbul edib. Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf də Azərbaycandır.

44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür. Bizim bütün şəhərlərimiz yerlə-yeksan edilib, bütün tarixi abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən ya tam dağıdılıb, ya da təhqir olunub. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan yarıdağılmış məscidlərdə mənfur düşmən bizi təhqir etmək üçün, bütün dünya müsəlmanlarını təhqir etmək üçün heyvan saxlayırdı, inək, donuz saxlayırdı. Mən əminəm ki, dünya müsəlmanları buna adekvat reaksiya verəcəklər. Mən bir çox müsəlman ölkələrindən bu məsələ ilə bağlı məktublar alıram. Biz işğal dövründəki erməni vəhşiliyi ilə bağlı, erməni faşizmi ilə bağlı əməli işlər aparırıq, bütün dünyanı məlumatlandırırıq və məlumatlandıracağıq. Ona görə də bizim Qələbəmiz qeyd etdiyim kimi, erməni faşizmi üzərində əldə edilmiş Qələbədir.

Ermənistanda hakimiyyət dəyişikliyi olur və olubdur, ancaq düşmənin xisləti dəyişmir. Ermənistanda tüğyan edən azərbaycanofobiya, islamofobiya psixi xəstəlik dərəcəsinə çatmışdır. Azərbaycanlılara qarşı olan nifrət orada rəsmi ideologiya kimi bərqərar edilib. Əks təqdirdə, bu qədər vəhşilik törədilməzdi. Azad edilmiş torpaqlara hər gələn insan dəhşətə gəlir ki, bunu törədən insan deyil. Mən hətta deyə bilərəm ki, bunu törədən heyvan da deyil. Bunu törədən azğınlaşmış, quduzlaşmış, azərbaycanofob kütlədir, qəbilədir. Buna başqa ad vermək olmaz və bütün dünya bunu görməlidir. Ermənistanın havadarları bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər, biz göstərəcəyik, bütün dünyaya göstərəcəyik ki, biz hansı bəlanın dərsini verdik, biz bölgəmizi hansı bəladan xilas etdik. 30 il ərzində bizim bütün tarixi abidələrimizi, milli sərvətlərimizi, təbii resurslarımızı talayan, dağıdan düşmənə dərs verilməli idi, yoxsa yox?! Buna baxmayaraq, müharibədən əvvəl mən dəfələrlə demişdim ki, əgər Ermənistan rəhbərliyi öz xoşu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək torpaqlarımızdan çıxarsa, müharibə təbii ki, istisna ediləcəkdir. Müharibə dövründə də mən bunu dəfələrlə demişəm. Demişəm ki, Ermənistan rəhbərliyi bizə tarix versin, hansı gündə hansı torpağımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Ancaq bunu etmədilər. 44 gündən sonra - artıq Ermənistan ordusunun beli qırılandan, biz alınmaz qala sayılan Şuşanı və ardınca 70-dən çox kəndi işğalçılardan azad edəndən sonra düşmən məcbur qalıb təslim olub. Bu dərs əbədi dərsdir, bunu heç kim yaddan çıxarmasın!

*"Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı"*

Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

*"Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox!"*





## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, birinci xanım Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.

# Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib

## *Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər*

**Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgi, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdiriblər.

Dövlətimizin başçısı yürüşdə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı aparırdı. Müdafiə Nazirliyinin hərbi hissəsinin zabiti baş leytenant Adil İbrahimli 2020-ci il noyabrın 7-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı həlak olub. O, Şuşa istiqamətində aparılmış döyüş əməliyyatlarında xüsusi tapşırıqların yerinə yetirilməsində şəxsi igidlik göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Adil İbrahimlini “Vətən müharibəsi qəhrəmanı” adı, “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edib.



Birinci xanım Mehriban Əliyeva isə yürüşdə şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuş plakatla irəliləyirdi. Narin Xalıqova 2019-cu il dekabrın 17-də Gəncə şəhərində doğulub. Ailənin tək övladı olan Narin 5 illik həsrətin sonunda dünyaya göz açmışdı. Narin Xalıqova 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində anası Sevil Əsgərova, həmçinin yaxın qohumları Suliddin Əsgərov, Bəxtiyar Əsgərov, Nigar Əsgərova ilə birlikdə həlak olub. Nazirlər Kabinetinin qərarına əsasən Narin Teymur qızı Xalıqovaya şəhid statusu verilib.

Neftçilər prospektindən başlayan yürüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinədək davam edib. Yürüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı qarnizonunda yerləşən hərbi hissələrin 3000 nəfərdən çox kursant və hərbi qulluqçusu iştirak edib.








Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı xalqımız işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda dəmir yumruq kimi birləşərək dövlətimizin düşmənə layiqli cavab verməsinə nail oldu.

Ardı Səh. 5





Əvvəli Səh. 4

# Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib

## *Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər*

Xalqımız Vətənin müdafiəsi və torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda birliyin gücünü bütün dünyaya nümayiş etdirdi. Azərbaycana, onun xalqına layiqli övlad olmağa, daim Vətənin keşiyində cəsarətlə dayanmağa and içən gənc kursant və hərbçilər ərazi bütövlüyümüz uğrunda şəhid olan soydaşlarımızı dərin ehtiramla anır, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun tarixi Zəfərini şərəflə xatırlayırlar.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib. Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də, ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdiriblər.

44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, haqq və ədalətin bərpası naminə Azərbaycanda əsrlər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan müxtəlif millətlərin və dinlərin təmsilçiləri iştirak ediblər. Qarabağ müharibəsi Azərbaycan cəmiyyətinin fərqli dini və etnik-milli mənsubiyyətinə baxmayaraq həmrəy olduğunu bir daha nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində bizə zəfər sevincini yaşatdı və Azərbaycanın qürur tarixini yazdı.

Vətən müharibəsi Azərbaycan gənclərində, torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu bir daha nümayiş etdirdi, xalqımız Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. "Dəmir yumruq" hərbi əməliyyatı zamanı Ordumuz düşmənin 30 ilə yaxın müddətdə qurduğu istehkamları, müdafiə xətlərini qəhrəmancasına yararaq irəlilədi.

Anım Günündə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidində, Təzəpir məscidində, "Jen Mironosits" pravoslav kafedral kilsəsində, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqunda, Ağdam Cümə məscidində, Kəlbəcərdəki Xudavəng məbədində, Laçındakı Ağoğlan məbədində, Şuşadakı Yuxarı Gövhər Ağa məscidində və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad edilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, bölgəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar oxunub.

Vaxtilə işğal altında olan, düşmən tərəfindən viran edilən torpaqlarımızda müzəffər Azərbaycan Ordusunun tarixi Qələbəsi sayəsində həyat yenidən canlanır, həmin ərazilərə insanlarımızın qayıtması üçün şərait yaradılır.













Ardı Səh. 6

# Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib

## *Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər*

Əvvəli Səh. 5

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak etdilər.

Dövlətimizin başçısı və birinci xanım Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoydular.

Təməlqoyma mərasimindən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı.

Ötən müddət ərzində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, kompleksin ərazisində torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin azadlığı uğrunda mübarizə aparan əsgər və zabitlərin igidliyini, xalqın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.














Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərdən fasiləsiz fit səsi verildi, yaylım atəşi açıldı.

# "Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bundan sonra da bütün istiqamətlərdə inkişaf edəcək"

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Anım Günü ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib*



**Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Anım Günü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Türkiyə Prezidenti Vətən müharibəsində həlak olmuş şəhidlərimizlə əlaqədar Azərbaycan Prezidentinə bir daha başsağlığı verib.

Rəcəb Tayyib Ərdoğan, eyni zamanda, İkinci Qarabağ müharibəsində ordumuzun şanlı Qələbəsi ilə bağlı təbriklərini də çatdırıb.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısına minnətdarlığını bildirib və Vətən müharibəsi zamanı Türkiyə Prezidentinin ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyi bir daha yüksək qiymətləndirib.

Dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri 27 Sentyabr-Anım Günü ilə əlaqədar Şəhidlər xiyabanlarını və Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

**Bu gün Yeni Azərbaycan Partiyasının nümayəndələri 27 Sentyabr-Anım Günü ilə əlaqədar II Şəhidlər xiyabanını ziyarət edib, Vətən müharibəsində canlarını qurban vermiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edib, məzarlarının önünə gül dəstələri düzüblər.**

Sonra YAP nümayəndələri Fəxri xiyabanın önündə qurulan monitorda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 Sentyabr - Anım Günü ilə bağlı Azərbaycan xalqına müraciətini izləyiblər. Dövlətimizin başçısının müraciəti alqışlarla qarşılanıb.

Daha sonra partiyanın nümayəndələri Fəxri xiyabanda müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini böyük ehtiramla yad ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

YAP nümayəndələri tərəfindən Şəhidlər xiyabanıda ziyarət olunub, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub, gül dəstələri düzülüb.













# "Çoxsaylı cinayətlər törətmiş Ermənistan beynəlxalq müstəvidə qanun qarşısında mütləq cavab verməlidir"

*Yeni Azərbaycan Partiyası Anım Günü ilə bağlı bəyanat yayıb*

**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin şərəf və mübarizlik simvoluna çevrilən İkinci Qarabağ - Vətən müharibəsinin başlanmasından 1 il ötür. Şübhəsiz ki, Vətən müharibəsində Azərbaycan xalqının həmrəyliyi, Müzəffər Ali Baş Komandanımızın qətiyyətli siyasəti və Ordumuzun gücü sayəsində qazanılmış parlaq Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünün deyil, eyni zamanda, tarixi ədalətin və milli ləyaqətin bərpasıdır.**



Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixində imzaladığı "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncama əsasən respublikamızda Vətən müharibəsi qəhrəmanları minnətdarlıq hissi ilə anılır, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna böyük ehtiram göstərilir. Şəhid ailələrinə, qazilərimizə dövlətin xüsusi diqqət və qayğısı isə cəmiyyətdə olduqca yüksək qiymətləndirilir, Azərbaycan xalqı Vətənin mübariz və qəhrəman övladları ilə fəxr edir.

İnkaredilməz həqiqətdir ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini 30 ilə yaxın müddət ərzində işğal altında saxlamış, yaşayış məntəqələrini dağıtmış, dinc əhali amansızcasına qətlə yetirilmişdir. Ermənilər tərəfindən soydaşlarımıza qarşı vandalizm aktları, işğal altında olmuş ərazilərimizdə təxribatlar törədilmiş, təmas xətti boyunca yaşayan dinc əhaliyə mütəmadi atəş açılmış, beynəlxalq hüquq normaları kobud surətdə pozulmuşdur. İşğal dövründə Azərbaycan xalqının zəngin tarixini və şanlı keçmişini əks etdirən unikal mədəniyyət nümunələri də məhv edilmiş, tarixi, dini və mədəni abidələrimizə qarşı soyqırımı həyata keçirilmişdir. Bütün bunlar bəşəriyyətə qarşı təhdid olan erməni faşizminin əsl simasını bütün dünyaya nümayiş etdirmişdir.

Lakin ötən 30 ilə yaxın bir müddət ərzində beynəlxalq birlik məsələnin həllinə laqeyd və ikili standartlar əsasında yanaşmış, işğalçıya və işğala məruz qalmış tərəfə eyni münasibət bəslənilmişdir. Cəzasızlıq mühitindən istifadə edən, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirməkdən boyun qaçıran Ermənistan isə qeyri-konstruktiv mövqeyini, hərbi-siyasi təxribatlarını davam etdirmişdir. Beləliklə, danışıqlar prosesinə heç bir ümid qalmaması Azərbaycan xalqının səbrini tamamilə tükətmişdir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının və dövlətinin heç vaxt işğal faktı ilə barışmayacağını, işğalçı Ermənistanın bütün təxribatlarının qarşısının qətiyyətlə alınacağını, ölkəmizin ərazi bütövlüyünün bərpa ediləcəyini dəfələrlə bəyan etmişdir. 2016-cı ildə baş vermiş Aprel döyüşləri, 2018-ci ildə keçirilmiş uğurlu Günnüt əməliyyatı, 2020-ci il iyul ayındakı Tovuz döyüşləri Azərbaycan dövlətinin iradəsini, Ordumuzun gücünü və xalqımızın həmrəyliyini bütün dünyaya göstərmişdir. Amma bütün bunlardan nəticə çıxarmayan Ermənistan 2020-ci il 27 sentyabr tarixində növbəti hərbi təxribat törətmiş, Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini şiddətli artilleriya atəşinə tutmuşdur. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri vermişdir.

Ötən il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi qüdrətli Azərbaycan Ordusunun Zəfər yürüşünə çevrilmişdir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatının həyata keçirilməsi, döyüş meydanında möhtəşəm qələbə qazanılması sayəsində Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət bərpa olunmuşdur. Azərbaycan öz milli gücü və hərbi-siyasi qüdrəti ilə BMT-nin 4 qətnaməsinin döyüş meydanında icrasına müvəffəq olmuşdur. Eyni zamanda, 44 günlük Vətən müharibəsində Ordumuzun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti ermənilərin və havadarlarının bölgədəki mənfur siyasətinin iflasa uğramasını şərtləndirmişdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın işğaldan azad olunmasına nail olmaqla tariximizdə heç bir dövlət başçısına nəsib olmayan möhtəşəm və tarixi Zəfərə imza atmışdır.

Bu tarixi Qələbə ilə Azərbaycan xalqı düşməndən qisas almış, şəhidlərimizin qanı yerdə qalmamışdır. Heç şübhəsiz, tarixi Zəfərin qazanılmasında xalqımızın milli həmrəylik, eləcə də ölkəmizdə fəaliyyət göstərən siyasi qüvvələrin birlik nümayiş etdirərək Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyinə birmənalı dəstək göstərməsinin mühüm rolu var. Vətənin bütövlüyü uğrunda mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlər, arxa cəbhədə çalışan mülki şəxslər, ümumilikdə, Azərbaycan xalqı cəsarət və qətiyyət göstərərək, bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirmişdir. Vətən müharibəsi zamanı siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətləri də milli məsələlərdə ölkədə siyasi birliyin göstəricisidir.

Bu gün öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etmiş Azərbaycan regionda yeni reallıqlar yaratmışdır. Bütün şərtləri diktə edən qalib Azərbaycanın konstruktiv siyasəti, strateji əhəmiyyətli təklif və təşəbbüsləri regionda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasına yönəlmişdir. Məğlub Ermənistan isə 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın bütün müddəalarını - tələblərini zamanında, tam və qeyd-şərtsiz yerinə yetirməlidir. Bununla yanaşı, Ermənistan konstruktiv mövqedən çıxış edərək təxribatlardan çəkinməli, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası ilə əlaqədar öz üzərinə düşən işləri görməli, o cümlədən mina xəritələrini ölkəmizə təqdim etməlidir. Eyni zamanda, həm işğal dövründə, həm də 44 günlük müharibə ərəfəsində çoxsaylı cinayətlər törətmiş Ermənistan hüquqi məsuliyyət daşıyır və beynəlxalq müstəvidə qanun qarşısında mütləq cavab verməlidir.

Yeni Azərbaycan Partiyası beynəlxalq ictimaiyyəti, tərəfdaş siyasi partiyaları və beynəlxalq siyasi partiya təşkilatlarını bölgədə sülhün, sabitliyin və ədalətin təmin olunması naminə Ermənistanın terrorizm, hərbi cinayət, mina xəritələrini Azərbaycana təqdim etməməsi əməllərinə görə hüquqi məsuliyyətə cəlb edilməsi üçün lazımi addımları atmağa çağırır.

Regionun inkişafı sabitlikdən, bölgə dövlətlərinin konstruktiv münasibətlərindən asılıdır. Azərbaycan Respublikasının aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutaraq bundan sonra da regionda sülh, təhlükəsizlik və əməkdaşlıq ideyalarına sadiqlik nümayiş etdirəcək, bu istiqamətdə real və fəal təşəbbüslərlə çıxış edəcəkdir.

Bəyanat Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının təşkilatçılığı və İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası, Gənclər Birliyi üzvlərinin iştirakı ilə keçirilən Anım gününə həsr olunmuş konfransda qəbul edilmişdir.

## Tahir Budaqov: 27 Sentyabr tariximizin dönüş nöqtəsidir



"Bu gün respublikamızda 27 Sentyabr - Anım Günü qeyd olunur. Anım Günündə Vətən uğrunda canlarını fəda etmiş, qəhrəmanlıq göstərərək şəhid olmuş bacı və qardaşlarımızın əziz xatirəsini böyük ehtiramla yad edirik. Tarixi Zəfərin qazanılmasında iştirak edən hər bir şəxsə minnətdarlığımızı bildiririk. 27 sentyabr həm də tariximizdə dönüş nöqtəsidir. Azərbaycan xalqı çoxəsrlik tariximizdə ilk dəfə olaraq bu cür parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü təmin etdi". Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında bildirib.

Tahir Budaqov qeyd edib ki, Azərbaycan dövləti və xalqı 44 günlük Vətən müharibəsi nəticəsində tarixi ədaləti bərpa etdi. Onun sözlərinə görə, YAP nümayəndələri Anım Günü ilə bağlı II Şəhidlər xiyabanını, ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər: "Düşünürəm ki, şanlı qələbəyə aparan yol 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başladı. Məhz o dövrdən etibarən respublikamızın inkişafı, o cümlədən ordu quruculuğu istiqamətində görülən işlər, həyata keçirilən böyük layihələr, eləcə də informasiya blokadasının yarılması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması haqq işimiz uğrunda mübarizəmizdə mühüm rol oynadı. Bilirsiniz ki, ulu öndər Heydər Əliyevin son çıxışı da bu gün onun adını daşıyan sarayda əsgər və zabitlər qarşısında olmuşdu. Heydər Əliyev həmin tədbirdə səhhətində problem yaranmasına baxmayaraq, Ali Baş Komandan kimi hərbçilərimizə nümunə göstərdi. Ümumiyyətlə, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın, xalqımızın inkişafına və tərəqqisinə, ölkəmizin bütövlüyünə həsr etdi. Prezident, Ali Baş Komandan İlham Əliyev də tarixi qələbədən sonra ilk olaraq ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdi və ata vəsiyyətini yerinə yetirdiyini bəyan etdi".

Vətən müharibəsinin birinci ildönümü ilə bağlı YAP tərəfindən tədbirlər planının təsdiq olunduğunu deyən Tahiq Budaqov vurğulayıb ki, partiyanın bütün yerli təşkilatlarında noyabr ayının ortalarına qədər silsilə tədbirlər davam edəcək: "Bu gün isə Yeni Azərbaycan Partiyasının 27 Sentyabr- Anım Gününə həsr olunmuş böyük konfransı keçiriləcək. Konfransın sonunda bəyanat qəbul olunacaq".

## Mövlud Çavuşoğlu: Türkiyə və Azərbaycan Prezidentləri bölgədə sülh və rifah istədiklərini dəfələrlə vurğulayıblar

Bu gün türk dünyası üçün fərqli mənalar daşıyan vacib bir tarixdir. Bu gün, eyni zamanda, Qarabağın azadlığına gedən Vətən müharibəsinin başladığı, can Azərbaycanın şəhidlərinin anıldığı gündür. Əziz şəhidlərimizə Allahdan rəh-



mət diləyirəm. AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv ölkələrin xarici işlər nazirlərinin fövqəladə iclası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə mətbuat konfransında bildirib.

Qarabağın artıq sülh və dirçəlişlə anılmasını arzu etdiklərini bildirən nazir deyib: "Bölgə artıq normallaşma dövrünə qədəm qoymalıdır. Artıq regional əməkdaşlığa və rifaha aparan yeni fürsətlər meydana gəlib. Hər kəsin qazanclı çıxacağı bu fürsətlərin bütün ölkələr tərəfindən dəyərləndiriləcəyinə ümid edirik. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin bölgədə sülh və rifah istədiklərini dəfələrlə vurğulayıblar".

Media nümayəndələrinin suallarını cavablandıran M.Çavuşoğlu Ermənistanla Türkiyə arasında diplomatik əlaqələrin qurulması məsələsinin Azərbaycanla müzakirə olunduğunu, bu istiqamətdə Ermənistanın xarici işlər naziri ilə heç bir görüş planlaşdırılmadığını bildirib. Qeyd edilib ki, Türk Şurasına üzv ölkələrin xarici işlər nazirlərinin növbəti iclasının Azərbaycanda keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, bugünkü tədbirdə Əfqanıstanda baş verən son hadisələr, qanunsuz miqrasiya dalğasının, terror təşkilatlarının canlanmasının qarşısının alınması, insan haqlarının qorunması, terrorla mübarizə və digər mövzular müzakirə olunub. Müzakirələrin yekunu ilə bağlı birgə bəyanat qəbul edilib.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında 27 Sentyabr - Anım Gününə həsr olunmuş videokonfrans keçirilib

**Sentyabrın 27-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında 27 Sentyabr - Anım Gününə həsr olunmuş videokonfrans keçirilib.**

Tədbirdə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Azərbaycan zəngin və çoxəsrlik dövlətçilik tarixinə malikdir. Bu tarix bəşər sivilizasiyasına bənzərsiz töhfələr vermiş xalqımızın qürurlu və şanlı keçmişini, şərəfli inkişaf yolunu özündə ehtiva edir. XX əsrdə iki dəfə müstəqillik qazanmış Azərbaycan dövlətinin bugünkü tərəqqisi də məhz xalqımızın tarixi ənənələrinə, mütərəqqi milli dəyərlərinə söykənir və çağdaş dünyanın qlobal çağırışlarına cavab verməklə yanaşı özəlliyi ilə seçilir.

Müstəqilliyinin 30-cu ildönümünü qeyd etməyə hazırlaşan güclü və nüfuzlu Azərbaycan dövləti bu müddət ərzində tarixə əlamətdar hadisələri həkk etməyə müvəffəq olub. Şübhəsiz ki, bütün bu nəaliyyətlərin kulminasiyası torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası müstəsna əhəmiyyətə malik, dövlətçilik tariximizdə bənzəri



olmayan Zəfər salnaməsi - Qələbə dastanıdır.

Danılmaz faktdır ki, torpaqlarımız döyüş meydanında - Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun erməni faşizminin başını əzməsi, işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunub. Lakin xüsusi vurğulamaq gərəkdir ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, məqsədyönlü, milli maraqlara əsaslanan və müasir çağırışlarla uzlaşan strateji kursun real - məntiqi nəticəsidir. Müdrik dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən, inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasət sayəsində Azərbaycanın milli gücü - iqtisadi potensialı, hərbi qüdrəti artıb. Eyni zamanda, hücum xarakterli dərin strateji diplomatiyanın həyata keçirilməsi ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində güclü dostluq və tərəfdaşlıq əlaqələri formalaşdırmasını təmin edib. Təbii ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsinin həllini mümkün edib.

Azərbaycan dövləti öz milli gücü ilə və hərbi-siyasi yolla torpaqlarını işğaldan azad etməklə - ərazi bütövlüyünün bərpasına müvəf-




fəq olmaqla həm də Ermənistanın işğalçı siyasətinə loyal münasibət göstərən, bununla da separatizmə rəvac verən bir sıra böyük dövlətlərin, eləcə də bəzi beynəlxalq təşkilatların ikili standartlar siyasətini, qərəzli və qeyri-obyektiv mövqeyini iflasa uğratdı. Münaqişənin hərbi yolla həllini istisna edən həmin geosiyasi aktorlar hesab edirdilər ki, işğal məhsulu olan status-kvonu saxlayacaqlar və regionda neqativ faktor olan separatizm meyillərindən, təcavüz faktından öz məhdud maraqları üçün istifadə etməyə davam edəcəklər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu vəziyyəti, yəni dondurulmuş münaqişəni alternativsiz bir variant kimi təqdim etməyə çalışırdılar.

Bütün bunlara rəğmən, həmrəylik nümayiş etdirən xalqımız və sarsılmaz siyasi iradə nümunəsi ortaya qoyan Azərbaycan dövləti işğal faktı ilə barışmadı. Cənubi Qafqaz regionunun lider dövləti olan, müasir beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında davamlı yüksəlişə



malik Azərbaycan münaqişənin sülh yolu ilə həlli perspektivinin yoxluğunu görərək Ermənistanın davamlı xarakter alan hərbi-siyasi təxribatlarına, siyasi ekstremizm nümunəsi olan qeyri-konstruktiv mövqeyinə dözmək və dünya birliyinin geostrateji ətalətinə göz yummaq niyyətində olmadığını açıq - aydın ifadə etdi. Hətta müharibədən əvvəl keçmiş təmas xətti boyunca və iki ölkə arasındakı sərhəddə təxribatları daha da intensivləşdirən işğalçı ölkədən "yeni ərazilər uğrunda yeni müharibə" iddialarının səsləndirilməsi Azərbaycan dövlətinin və xalqının səbir limitini tükətdi. 2020-ci ilin sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzkar silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alan Azərbaycan əks-hücum əməliyyatına başladı, öz ərazilərini işğaldan azad etmək üçün Zəfər yürüşünə start verdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali



Baş Komandanı İlham Əliyev xalqımıza müraciətində qətiyyətli mövqe sərgiləyərək və güclü siyasi iradə ifadə edərək "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!",- deyə vurğuladı. Beləliklə, beynəlxalq hüquq normalarına, konkret olaraq BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq əks-hücum əməliyyatlarını müvəffəqiyyətlə həyata keçirən müasir və qüdrətli Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni faşizminə sarsıdıcı zərbə endirdi, ard-arda kəndlərimiz və şəhərlərimiz, yaşayış məntəqələrimiz, strateji yüksəkliklər və məntəqələr işğaldan azad olundu.

300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında işğaldan azad edən Silahlı Qüvvələrimiz daha bir tarixi missiyasını şərəflə və müvəffəqiyyətlə yerinə yetirdi. Noyabrın 8-də əzəli və əbədi Azərbaycan torpağı - dünyanın mədəniyyət incilərindən olan qədim Şuşa şəhəri Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərinin xüsusi məharəti, böyük şücaəti və nümunəvi rəşadəti sayəsində əsarətdən xilas edildi. Azərbaycan Prezidenti Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!", - deyə vurğuladı. Bu, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan xalqının Zəfər yürüşünün möhtəşəm nəticəsi, Heydər Əliyev ideyalarının təntənəsi və çoxəsrlik dövlətçilik tariximizin zirvə hadisələrindən biri kimi şanlı qürur və iftixar səhifəsi idi.

Döyüş meydanında tarix yazan Azərbaycan Ordusunun Şuşanın xilasından bir gün sonra daha 70-dən artıq yaşayış məntəqəsini işğaldan azad etməsinin ardından Ermənistanın hərbi-siyasi təslimçilik mövqeyindən çıxış etməsi və onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalaması Azərbaycanın qələbəsinin siyasi-hüquqi təsdiqi idi. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları Bəyanata əsa-



sən üzərinə bir sıra öhdəliklər götürən işğalçı dövlətin sonradan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz respublikamıza təhvil verməsi Azərbaycanın hərb meydanında qazandığı möhtəşəm qələbənin diplomatiya müstəvisində davamı olmaqla Zəfər tariximizin mühüm səhifəsidir.

Beləliklə, Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etməklə öz gücünü - qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bütün cəbhələrdə - istər hərb meydanında, istər diplomatiya müstəvisində, istərsə də informasiya platformasında tarixi qələbənin memarı - müəllifi olan Prezident İlham Əliyev Azərbaycanın möhtəşəm Zəfərini dəyərləndirərkən "Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik", - deyə vurğulayıb.

Məlumdur ki, həm XX, həm də XXI əsrdə bəzi müsəlman ölkələrin əleyhinə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icrası dərhal təmin olunmuş, həmin dövlətlərə qarşı sanksiyalar və geniş hərbi əməliyyatlar həyata keçirilmişdi. Bu, məhz bir sıra qlobal güc mərkəzlərinin geosiyasi iradəsi və istəyi nəticəsində mümkün olmuşdu. BMT Azərbaycanın işğal altında olan ərazilərinin təcavüzkar Ermənistanın silahlı qüvvələrindən boşaldılması barədə 4 qətnamə qəbul etsə də, onların icrası təmin edilməmişdi. Bu isə məhz kifayət qədər təsir imkanlarına malik olan böyük dövlətlərin, bəzi beynəlxalq təşkilatların ikili standartlara əsaslanan selektiv münasibətinin nəticəsi idi. Belə hal cəzasızlıq mühitində Ermənistanın hərbi-siyasi təxribatlarına rəvac vermiş, işğalçı ölkənin qeyri-konstruktiv mövqe sərgiləməklə regional təhlükəsizliyə ciddi təhdidlər yaratmasını şərtləndirmişdi. Lakin uzun müddət ədalətsiz münasibətlə üzələşən Azərbaycan bütün təzyiq və təhdidlərə baxmayaraq, işğalçı, separatizmdən qidalanan Ermənistanı hərb meydanında ciddi cəzalandırmaqla tarixi ədalətsizliyi aradan qaldırdı. Bu, həm də dünya erməniliyinin, hələ də müstəmləkə təfəkkürü ilə yaşayan geosiyasi dairələrin və islamofob mərkəzlərin fiaskoya uğradılması idi.

Ən mühüm məqamlardan biri budur ki, Azərbaycan beynəlxalq hüquq normalarının müvafiq prinsiplərində və BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş özünümüdafiə hüququna istinadla tarixi ədaləti bərpa edərək mühüm bir presedent yaratdı. Yəni Azərbaycan Birləşmiş Millətlər Təşkilatının uzun illər kağız üzərində qalmış 4 qətnaməsinin yerinə yetirilməsini təmin etməyə nail oldu. Bununla da bir dövlətin öz hərbi-siyasi, iqtisadi, diplomatik qüdrətinin beynəlxalq hüquq normalarının yerinə yetirilməsi üçün həlledici amil olduğu nümayiş etdirildi.

Bu, eyni zamanda, qlobal tənzimləmə mexanizmi olan beynəlxalq hüquqa hörmətsizlik sindromunun aradan qaldırılması baxımından vacib nümunə oldu. Azərbaycanın yaratdığı strateji presedent milli güc faktorunun qlobal geosiyasətdə həlledici amil olduğunu təsdiqlədi. Təbii ki, milli güc deyildikdə təkcə hərbi potensial nəzərdə tutulmur. Buraya siyasi-diplomatik, iqtisadi, mənəvi-psixoloji güc və milli həmrəylik faktoru, eləcə də beynəlxalq reputasiya daxildir. Azərbaycan öz haqlı mübarizəsində həm siyasi-diplomatik, həm iqtisadi imkanlarından, həm də milli birlik faktorundan səmərəli istifadə etməklə və qlobal informasiya platformasında məqsədyönlü fəaliyyət həyata keçirməklə, son nəticədə hərb meydanında düşməni darmadağın etməklə tarixin XXI əsr səhifəsinə QALİB AZƏRBAYCAN adını yazdırdı!

Digər tərəfdən, qalib və qüdrətli Azərbaycan postkonflikt mərhələsində də qətiyyətli mövqe sərgiləyir. Xüsusilə də, Ermənistanın regionda sülh və təhlükəsizliyə təhdid yaradan təxribatlarının qarşısının alınması istiqamətində prinsipiallıq nümayiş etdirilir. Ən əsası, bu ölkənin müharibə cinayətlərinə görə beynəlxalq müstəvidə qanun və hüquq qarşısında cavab verməsi üçün müvafiq iş aparılır.

*Ardı Səh. 10*

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında 27 Sentyabr - Anım Gününə həsr olunmuş videokonfrans keçirilib

Əvvəli Səh. 9

Məlumdur ki, Azərbaycan Ordusunun Zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla çox sayda müharibə cinayəti törədib. Nəticədə həmvətənlərimizin bir çoxu şəhid olub, yaralanaraq sağlamlığını itirib. Bu, bəşəriyyətə qarşı vandalizm aktı olmaqla yanaşı, beynəlxalq hüquq normalarının kobud surətdə pozulmasıdır. Ona görə də, qeyd etdiyimiz kimi, işğalçı ölkənin beynəlxalq hüquq qarşısında cavab verməsi zərurətdir. Eyni zamanda, təcavüzkarlar unutmamalıdır ki "Dəmir yumruq" öz yerindədir və bundan sonra da istənilən təxribat cəhdinin qarşısını alacaq!

Məlum olduğu kimi, Azərbaycanın möhtəşəm tarixi qələbəsini təmin edən bir çox faktor mövcuddur. Bunların sırasında "yumşaq qüvvə" kimi dəyərləndirilən medianın gücündən istifadə mühüm yer tutur. Ümumiyyətlə, informasiya əsri hesab olunan XXI yüzillikdə media strateji vasitədir və düzgün təbliğat-informasiya siyasəti aparmadan ciddi nailiyyət qazanmaq mümkün deyil. Məhz Vətən müharibəsinin bir cəbhəsinin də informasiya savaşı olduğunu



nəzərə alsaq, bu istiqamətdə görülən işlərin və əldə edilən üstünlüyün tarixi Zəfərimizin qazanılmasında necə böyük önəm kəsb etdiyini daha yaxşı anlamış olarıq.

İnkaredilməz həqiqətdir ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan təkcə hərb meydanında deyil, həm də informasiya-təbliğat müstəvisində tarix yazdı. Prezident İlham Əliyevin milli məzmunlu, qlobal xarakterli informasiya strategiyası Azərbaycanın bu cəbhədə də üstünlüyünü təmin etdi, düşmən və ona hamilik edən anti-Azərbaycan dairələr sərrast informativ-ideoloji atəşlərlə darmadağın edildi. Dövlət başçısı həmin müddətdə 30-a yaxın xarici kütləvi informasiya vasitəsinə müsahibə verərək Azərbaycanın haqlı - ədalətli mövqeyini, mövcud reallıqları, tarixi, siyasi, hüquqi məsələləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Eyni zamanda, erməni yalanları ifşa edildi, Azərbaycan əleyhinə aparılan qara piar kampaniyası iflasa uğradıldı, dezinformasiyaların qarşısı qətiyyətlə alındı. Prezident İlham Əliyevin bəhs olunan müsahibələr zamanı ifadə etdiyi fikirlər - diplomatik incəliklə, konkret olaraq və açıq-aydın şəkildə toxunduğu məsələlər Azərbaycanın beynəlxalq informasiya platformasında mövqeyinin möhkəmlənməsini, qlobal ictimai rəyin ölkəmizin lehinə dəyişməsini təmin etdi.

Eyni zamanda, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər də Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətin diqqətinə təqdim olunması, anti-Azərbaycan dairələrin qara piar kampaniyasının iflasa uğradılması, erməni yalanlarının ifşa olunması baxımından olduqca effektivdir. Yeni mərhələdə - postkonflikt dövründə də bu istiqamətdə sistemli fəaliyyət ardıcıl olaraq davam etdirilir. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi hü-



cum diplomatiyasına zəruri dəstək olmaqla yanaşı, qlobal informasiya-təbliğat müstəvisində Azərbaycanın mövqeyinin daha da möhkəmləndirilməsi baxımından çox önəmlidir.

Azərbaycanın təntənəli Zəfər yürüşünün uğurlu və möhtəşəm olmasını təmin edən ən mühüm amillərdən biri, heç şübhəsiz, milli həmrəylik faktorudur. Ümumiyyətlə, müstəqillik dövrünün prosesləri və reallıqları təsdiqləyir ki, milli həmrəylik xalqımız, dövlətimiz üçün taleyüklü anlarda həlledici amil kimi çıxış edib. Müstəqilliyin ilk illərində Azərbaycanın ciddi tənəzzül, xaos və böhranla qarşı-qarşı olduğu zaman xalqımızın vahid mövqedən çıxış edərək Ümummilli Lider Heydər Əliyevin ətrafında sıx birləşməsi, milli birlik nümayiş etdirməsi ölkəmizin suverenliyinin qorunmasını, sabitlik və təhlükəsizliyin təmin olunmasını, respublikamızın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxmasını şərtləndirdi. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər ərzində həmrəylik amili Azərbaycan dövlətinin milli gücünü artıran faktora çevrildi.

Prezident İlham Əliyevin milli maraqlara əsaslanan strateji kursunun nəticəsi olaraq xalqımızın həmrəyliyinin daha da gücləndirilməsi ölkəmiz üçün yeni perspektivlər açdı. Azərbaycançılıq ideologiyasının təbliği və təşviqi istiqamətində sistemli, məqsədyönlü tədbirlərin həyata keçirilməsi, paralel olaraq respublikamızda müxtəlif xalqların nümayəndələrinin sülh, sabitlik və təhlükəsizlik şəraitində yaşaması, islahatlar nəticəsində siyasi qüvvələrin ümummilli məsələlərdə vahid platformada birləşməsinin təmin olunması və digər amillər milli birliyin əsaslarını gücləndirmiş oldu.

Ötən ilin iyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın təxribatlar törətməsi zamanı Azərbaycan xalqı, o cümlədən gənclər Ali Baş Komandanımıza, dövlətimizə və ordumuza birmənalı dəstəklərini ifadə etdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsində vahid yumruq kimi birləşən xalqımızın nümayəndələri birlik - həmrəylik nümunəsi ortaya qoyaraq ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda böyük fədakarlıq nümayiş etdirdilər. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan haqlı və şərəfli mübarizədə böyük şücaət, rəşadət və cəsarət göstərərək tarix yazan əsgər və zabitlərimiz, arxa cəbhədə öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən mülki şəxslər, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək Qələbəmizi təmin etdi.

Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin prinsipial siyasətinə qətiyyətli dəstək göstərmələri isə milli həmrəyliyin daha bir bariz nümunəsi idi. Beləliklə, 44 günlük Zəfər yürüşünün nəticəsi olan möhtəşəm Qələbə Azərbaycan dövlətinin milli gücünü, xalqımızın isə mübariz əzmini - sarsılmaz həmrəyliyini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan dövləti və cəmiyyəti Vətən müharibəsi qəhrəmanlarını - ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna böyük ehtiram, onların ailələrinə və qazilərimizə yüksək diqqət, qayğı göstərir. Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixində "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncam imzalaması isə bu baxımdan xüsusi qeyd edilməlidir. Hər il 27 sentyabr tarixinin respublikamızda Anım Günü kimi qeyd edilməsi Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.

Bunlarla yanaşı, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrini və qazilərimi-



zi daim diqqətdə saxlaması, onların qayğısına qalması da həm müharibə dönəmində, həm də sonrakı mərhələdə ictimai həmrəyliyin gücləndirilməsi baxımından müstəsna rol oynayıb. Mehriban xanım Əliyevanın Müzəffər Ali Baş Komandanımız İlham Əliyev ilə birlikdə işğaldan azad olunmuş torpaqlarımıza səfərlər etməsi, böyük tarixi, mənəvi və siyasi əhəmiyyətə malik olan "Xarıbülbül" Musiqi Festivalının, Vaqif Poeziya Günlərinin təşkili də post-müharibə dövründə yeni reallıqların təsdiqi baxımından olduqca böyük önəm kəsb edir.

Nəticə etibarilə, 44 günlük Vətən müharibəsi və Azərbaycanın şanlı qələbəsi çoxəsrlik dövlətçilik tariximizin zirvə hadisəsi - iftixar səhifəsidir. Bu Qələbə təkcə torpaqlarımızın işğaldan azad olunması - Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpası deyil, eyni zamanda, milli tərəqqinin yeni mərhələsinin başlanğıcıdır.

Hərbi-siyasi və diplomatik müstəvidə üstünlüyünü nümayiş etdirən Azərbaycan yeni geostrateji reallıqlar yaradıb, irəli sürülən strateji təşəbbüslər regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfə olmaqla yanaşı, ölkəmizin qlobal arenada mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Xüsusilə də, Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş formatda unikal əməkdaşlıq imkanlarının formalaşması deməkdir. Paralel olaraq işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpa olunması regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, ölkəmizin inkişafına yeni stimul - impuls olacaq.

Əminliklə söyləmək olar ki, postmüharibə dövründə Böyük Qayıdışı yüksək səviyyədə təmin etmək əzmində və gücündə olan Azərbaycan dövləti Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ardıcıl nailiyyətlər qazanmaqla



həm şanlı Qələbəmizin nəticələrinin daha da möhkəmləndirilməsinə, həm də yeni strateji zirvələrin fəth edilməsinə müvəffəq olacaq!

Sonra YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə "Şəhid ailələrinə və qazilərə diqqət, qayğı dövlətimizin sosial siyasətinin prioritet sahəsidir" mövzusunda çıxış edib. Bildirib ki, Vətən müharibəsində həlak olanların və sağlamlığını itirənlərin qəhrəmanlığını xalq heç vaxt unutmayacaq. Şəhid ailələrinə və qazilərə yüksək dövlət qayğısının olduğunu deyən A.Rəhimzadənin sözlərinə görə, 1997-2021-ci illərdə şəhid ailələrinin üzvlərinə on min beş yüz mənzil və fərdi ev verilib: "Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-2025-ci illərdə şəhid ailələri və müharibə əlillərinə mərhələli şəkildə 11 min mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. O cümlədən, 2021-ci ildə 3 min mənzil və fərdi ev. 2021-ci il üzrə artıq 1600, ümumən ötən dövrdə 11 minə yaxın mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. İndiyədək müharibə əlillərinə 7200 avtomobil verilib, bu il daha 100 avtomobil veriləcək. Son yeddi ayda 52 min nəfər şəhid ailəsinin üzvü və müharibə veteranı işlə təmin olunub, 7200 nəfər özünəməşğulluq proqramına, 56 min nəfər isə ödənişli ictimai işlərə cəlb edilib. Bu ilin əvvəlindən indiyədək 2600 nəfərə reabilitasiya xidməti göstərilib. YAŞAT Fondu tərəfindən bu günə qədər 131 qazi müalicə üçün Türkiyəyə göndərilib. Onlardan 81-i müalicəni keçib və Vətənə qayıdıb. Qazilərimizin qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də YAŞAT Fondu tərəfindən təmin edilib. Bu qəbildən olan vətəndaşların orta aylıq əmək haqqı 2018-2020-ci illərdə 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artıb".

Tədbirdə şəhid Manaf Bəhmənlinin anası Suray Bəhmənova "And yerimiz, qan yaddaşımız şəhidlər ölməzdir" mövzusunda çıxış edərək deyib ki, Azərbaycan xalqı hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Onun sözlərinə görə, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev tərəfindən 27 sentyabr tarixi Anım Günü kimi təsis olunub.

Dövlətimiz tərəfindən şəhid ailələrinə və qazilərə yüksək qayğı göstərildiyini deyən şəhid anası Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirib. "Mən oğlum Manafla qürur duyuram. O torpaqlarımızın azadlığı uğrunda canını qurban verib. O, təkcə mənim övladım deyil, bütün Azərbaycan xalqının övladıdır. Şəhidlərimiz öz qanları ilə torpaqlarımızı işğaldan azad etdilər. Bununla da, onlar tarixə öz adlarını əbədi yazdılar", -deyə Suray Bəhmənova vurğulayıb.

Konfransda YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə "Anım Günü: bütün şəhidlərə dərin hörmət və ehtiramın ifadəsi" mövzusunda çıxış edərək bildirib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Qələbə xalqımızın bütün dünyaya haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu. Azərbaycan Ordusu dünya hərb tarixində qalib Ordular sırasına daxil oldu. Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Qarabağ Azərbaycandır və nida" şüarı, qələbəyə səsləyən lider çağırışı kimi xalqımızın müqəddəs torpaqlarımız uğrunda savaşının ideya qayəsinə çevrildi. Xalqımızın, cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik, hər kəsin bir nəfər kimi ölkə Prezidentinin ətrafında sıx birləşərək böyük qələbəni reallığa çevirməsi bütün dünyada qüdrətli Azərbaycanın özünütəsdiqi kimi qəbul edildi. Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə, Laçında üçrəngli bayrağımızın dalğalanması ilə Azərbaycan tarixinin ən parlaq səhifələri yazıldı. Bölgəmizdə yeni reallıq yarandı. Bu reallığı Azərbaycan yaratdı .

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında 27 Sentyabr - Anım Gününə həsr olunmuş videokonfrans keçirilib

Əvvəli Səh. 10

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Vətən müharibəsi xalq-iqtidar birliyindən güc alan Azərbaycanın qüdrətinin, milli birliyinin sarsılmazlığının göstəricisi oldu: "Eyni zamanda, Azərbaycan xalqının qazandığı zəfərin möhtəşəmliyi Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun mümkünsüzü mümkünə çevirmək qüdrətindən bəhrələndi. Bu qələbə son əsrlərin ən böyük qalibiyyəti, dünya azərbaycanlılarının bir yumruq kimi birləşməsi ilə tarixə yazıldı. Azərbaycan ictimaiyyəti bu günlərdə böyük qürur hissi ilə milli tariximizdə silinməz iz qoymuş Vətən müharibəsinin başlanmasının, Azərbaycan torpaqlarında 30 illik erməni işğalına son qoyulmasının, tarixi Qələbənin ilk ildönümünü qarşılayır. Müstəqilliyimizi bərpa edəndən sonra ilk dəfədir ki, biz rayonlarımızın işğal tarixini yox, azad edilməsini qeyd edəcəyik. Prezident İlham Əliyev tərəfindən 27 sentyabr - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması ilə bağlı Sərəncamı şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir".

Videokonfransda Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Anar Mirzəyev "Vətən Müharibəsi müzəffər ordumuzun qəhrəmanlıq salnaməsidir" mövzusunda çıxış edib. O qeyd edib ki, qazanılan tarixi qələbədə bir çox amillər ciddi rol oynadı: "Prezident İlham Əliyevin güclü iradəsi, qətiyyəti, prinsipial mövqeyi, ordumuzun gücü, xalqımızın birliyi, vətənpərvər övladlarının şücaəti və göstərdiyi qəhrəmanlıq bu amillərin önündə gəlir. Azərbaycan xalqı belə bir tarixi məqamda yumruq kimi birləşməyi, tarixin sınağından üzüağ çıxmağı bacardı. Vətən müharibəsi xalqımızın dəmir yumruq kimi birliyini, ordumuzun vətənpərvərliyini, vətənə olan sevgi və məhəbbətini bir daha göstərdi".

Anar Mirzəyev Azərbaycanın güclü ordusunun olduğunu xüsusi vurğulayıb. Qeyd edilib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasəti Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən ötən illər ərzində uğurla davam etdirilib. Məhz bunun nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü orduları sırasına yüksəlib. "Ordumuzun gücü təkcə onun müasir texnika və silahlarla təminatı ilə bağlı deyil. Burada hərbçilərimizin, əsgərlərimizin yüksək vətənpərvərlik hissi və peşakarlığı da çox mühüm rol oynayır. Mən 44 günlük Vətən müharibəsində bunun şahidi oldum. Döyüşçülərimiz qorxmadan, böyük cəsarətlə düşmənin üzərinə gedirdilər. Onlar yaralansalar da döyüş meydanını tərk etmək istəmirdilər. Məhz belə bir ordu ilə biz düşmənə qalib gəldik",-deyə Vətən Müharibəsi Qəhrəmanı vurğulayıb.

"Dəmir yumruq: xalqımızın əzm, iradə və gücünün rəmzi" mövzusunda çıxış edən Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Ermənistanın Respublikasının ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə və işğal siyasətinə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı. Onun sözlərinə görə, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəman əsgər və zabitlərimiz, Azərbaycan xalqı yüksək əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə ağır və sarsıdıcı zərbələr endirdilər. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi: "Beləliklə 17 il ərzində Azərbaycanın Silahlı Qüvvələrində aparılan ardıcıl və sistemli islahatlar, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğundakı davamlı fəaliyyətinin nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. Vətən müharibəsində qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu".

Millət vəkili söyləyib ki, Ermənistan və onun havadarları "Dəmir yumruğu" heç zaman unutmayacaq. Əgər onlar yenə də təxribatlara əl atmaq istəsələr, "Dəmir yumruğu" başlarının üzərində görəcəklər.

Tədbirdə "Azərbaycan gəncliyi və Vətən Müharibəsi" mövzusunda çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ölkəmizdə yüksək vətənpərvər ruhlu gənc nəslin formalaşdığını diqqətə çatdırıb. Onun sözlərinə görə, bunun başlıca səbəbi əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu gənclər siyasətidir.

Bəxtiyar İslamov qeyd edib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyi öz qətiyyətli sözünü dedi: "Müharibədə döyüşənlərin böyük əksəriyyəti gənclər idi. Prezident, Ali Baş Komandanımız İlham Əliyev gənclərimizin vətənpərvərliyini yüksək qiymətləndirərək bildirib: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Onun sözlərinə görə, Azərbaycan gəncliyinin qarşısında bundan sonra da mühüm vəzifələr dayanır: "Biz öz fəaliyyətimizlə bu vəzifələrin öhdəsindən gəlməyə, dövlətimizin başçısının yüksək etimadını doğrultmağa, qarşımıza qoyduğu vəzifələri layiqincə yerinə yetirməyə çalışacağıq".

Sonda YAP Mərkəzi Aparatının aparıcı məsləhətçisi Ayşə İsazadə Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının bəyanatını səsləndirib.

Videokonfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Prezident İlham Əliyev 27 Sentyabr -Anım Günü ilə bağlı Azərbaycan xalqına müraciətində ciddi mesajlar verdi. Qarşımızda duran əsas vəzifə qazandığımız tarixi qələbəmizi qorumaqdan və Vətənimizi daha da inkişaf etdirməkdən, gücləndirməkdən ibarətdir. Burada əsas məqamlardan biri beynəlxalq müstəvidə fəal iş aparmaqdır. "YAP olaraq partiyamızın Sədrinin qarşımızda qoyduğu vəzifələri yerinə yetirmək üçün beynəlxalq müstəvidə əməkdaşlığı daha da gücləndirməyi nəzərdə tuturuq. Biz Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası ilə növbəti birgə konfrans keçirəcəyik. Həmin konfrans vasitəsilə dünyanın siyasi palitrasına mesajlar veriləcək",-deyən YAP Sədrinin müavini bir daha Vətən müharibəsinin tarixi əhəmiyyətini vurğulayıb, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsinin xalqımız tərəfindən daim böyük ehtiramla anılacağını qeyd edib.

# İrəvana da gedib çıxacağıq

## - QAZİLƏR DANIŞDI - SORĞU

**27 sentyabr Anım Günü səbəbi ilə Şəhidlər Xiyabanında SİA olaraq sorğu keçirdik. Həmin sorğunu sizə təqdim edirik:**



**Qazi Natiq Hacıyev:** "Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində döyüşdə iştirak etmişəm. Şuşa ətrafında gedən döyüşlərdə yaralanmışam. Əvvəla bütün şəhid ailələrinin qarşısında baş əyirəm. Allah bütün şəhidlərə rəhmət etsin. Allaha qazilərimizə şəfa versin. Mən onu deyə bilərəm ki, cənab Prezident ilə fəxr edirəm. Prezidentimiz ilə də, xalqımızla da fəxr edirəm. Dövlətimizlə fəxr edirəm. Allah Prezidentimizi, xalqımızı qorusun. Böyük sevinc hissi yaşayıram. Sevincimi ifadə edə biləcək söz tapa bilmirəm".



**Qazi Vilayət Acalov:** "Şəxsi heyətimiz adından şəhidlərimizə rəhmət diləyirəm. Qazi deyəndə biz hələ də ordumuzun sıralarındayıq. Baxmayaraq biz indi qaziyik. Amma həmişə Ali Baş Komandanın əmri ilə ordumuzun ön sıralarında getməyə hazırıq. Bu gün çox gözəl gündür. Bu gün Azərbaycanın çağırış günüdür. Bir il bundan qabaq cənab Prezident xalqın iradəsini, gücünü qüvvətini bütün dünyaya nümayiş etdirdi. Bunun da adı dəmir yumruqdur. Bu gün Şəhidlər Xiyabanına gəlib qardaşlarımızı ziyarət etdik. Onlara minnətdarlığımızı bildiririk ki, qanımız yerdə qalmadı. Minnətdarıq ona onlara ona görə ki, bu vətən uğrunda canlarından keçdi. Bizim Ali Baş Komandanımız hər zaman dünyaya mesaj da göndərdi. Azərbaycanla ultimatom dili ilə danışmaq olmaz. Azərbaycan xalqının iradəsi, Ali Baş Komandanın dəmir yumruğu hər zaman Azərbaycanın müdafiəsiinə qalxmağa hazırdır. Biz Qarabağ deyədeyə Zəngəzura getdik çıxdıq. Allah izn versə, İrəvana da gedib çıxacağıq. O əmri gözləyirik".



**Qazi Hacı Orucov:** "Mən Zərdab rayonundanam. Bu gün əməliyyat olmuşdum. Əməliyyatdan çıxıb bura Şəhidlər Xiyabanına gəldim. Bu bir vətəndaş kimi bizim də borcumuzdur. Fəxr edirəm ki, əsas odur ki, Qarabağ Azərbaycanındır".

**Şəhid anası Dilruba Behbudova:** "Bu günləri şəhidlərimizin anım günüdür. Allah bütün şəhidlərimizə rəhmət etsin. 1992-ci ildə Zəngilan şəhəri Qazançılar kəndi alınan zaman mənim oğlum orada şəhid olub. Bütün şəhidlərə Allahdan rəhmət diləyirəm. Bütün şəhid analarına Allahdan səbr diləyirəm. Allah bütün qazilərimizi, döyüşən ordumuzu, Ali Baş Komandanımızı qorusun. Bu gün mən qürur hissi keçirirəm ki, Prezidentimiz və döyüşən ordumuz bizim torpaqlarımızı aldı və bizim qanımız yerdə qalmadı. Deyir uğrunda ölən varsa, vətəndir. Oğullarımız öldüsədə, torpaqlarımız geri qayıtdı. Biz bu gün Prezidentimiz ilə, döyüşən ordumuz və qazilərimizlə fəxr edirik".






**TRT-nin Azərbaycan müxbiri Fatih Avanos:** " Bir il əvvəl bu günün sabahı Ağdam şəhərindəydik. Azərbaycan topçusunun əks hücuma başladığı o anlara şahidlik etdik. Türkiyəyə birbaşa yayına başladıq. Çox çətin bir dönəm idi 44 gün davam etdi amma davamı ilə birlikdə 60 gün davam etdi. Azərbaycan əsgərlərinin şücaətinin şahidi olduq. Orada unudulmaz xatirələr yaşadıq. Azərbaycan xalqının çəkdiyi acıları da gördük. Amma səbrli oldular müharibənin başa çatmasını gözlədilər. Güclü oldular möhkəm oldular. Onların o, dözümlü davranışının da şahidi olduq. İnanılmaz, unudulmaz günlər idi. 30 illik işğal müddəti Azərbaycan ordusu tərəfindən 44 gündə sona çatdırıldı. 2907 şəhidimiz var. Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Hamısı bir qəhramandır. Azərbaycanın gələcəyinə, tarixinə adlarını yazdırdılar. Hamısı rəhmətlə anıram. Bu gün Prezident İlham Əliyev xalqa səsləndi. Müraciət etdi orada da şəhidlərimizi andı. Biz Tər-Tərdə, Horadizdə, Ağdamda idik. Gəncəyə hücum olanda oradan ilk yayımları gerçəkləşdirdik. Bizim yanımızda oldu Gəncə hücumu 300-500 metr aralımızda hücum baş verdi. O anlara şahidlik etdik. Gecə yarsı 12:55 idi Gəncə hücumu unudulmaz idi. Heç vaxt bunu unuda bilməyəcəm. Uşaqları, qadınları, qocaları çökündən çıxarılarkən gördüm bunu da ömrüm boyu unuda bilməyəcəm".





**Şəhid qardaşı Xaləddin Talıbov:** "Qardaşım Sovet ordusunda xidmətini bitirdikdən sonra Qarabağda könüllü savaş getdi. Füzulidə döyüşlərdə oldu. Orada xeyli yerlərin düşməndən azad olunmasında iştirak etdi. 1994-cü ilin yanvarında da şəhid oldu. Allah cəmi şəhidlərə rəhmət etsin. Qalanlara cansağlığı arzu edirəm. Prezidentimiz düz vurğuladı ki, 30 illik həsrət 44 gündə öz həllini tapdı. Bu da cənab Prezidentin mərdliyi, şücaəti, ordumuzun qəhrəmanlığı ilə baş verdi".

*Turqay Musayev*

# Vətən uğrunda can fəda edənlər xalqın qəlbində əbədi yaşayırlar

**Bu gün Azərbaycanın bütün dünyaya səs salan tarixi Zəfərinin başlanğıc günüdür. Düz bir il əvvəl, 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı başlanan növbəti hərbi təcavüzünə Azərbaycan birdəfəlik və qəti cavab verdi, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə ötən ilin sentyabrından yeni və tariximizdə əbədi qalacaq bir mərhələ başlandı. Bu mərhələdə Azərbaycan xalqı, onun rəşadətli ordusu Lideri, Müzəffər Ali Baş Komandanı İlham Əliyev ətrafında sıx birləşərək, düşməni tarixi boyu unutmayacaq bir dərs verdi, ölkəmizin ərazi bütövlüyü bərpa edildi.**

44 gün davam edən müharibədə canını Vətənə fəda edən qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı, canı bahasına illərdir düşmən tapdağı olan torpaqlarımız nəhayət, azad edildi. Azərbaycanın qəhrəman oğul və qızları bir an fikirləşmədən belə həyatlarını, sağlamlıqlarını bu möhtəşəm Zəfərin əldə edilməsi üçün fəda etdilər. Onların şücaəti, göstərdikləri rəşadət daim Azərbaycan xalqının yaddaşında əbədi var olacaq, xatirələri ehtiramla anılacaq. Bu mənada təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə Vətən müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir. Bu, şəhidlərimizin ruhuna yüksək hörmət olmaqla yanaşı, həm də onların xalqın qəlbində əbədi yaşamalarının təzahürüdür. İndiki və gələcək nəsillər bundan sonra yüzilliklər, minilliklər boyu bu Qələbəni xalqımız bəxş edənlərin, qazanılan Zəfərin əzəmətini daim xüsusi qürur və fəxarətlə anacaqlar.

Məhz bu Qələbə sayəsində ölkəmiz təkcə ərazi bütövlüyünü bərpa etmədi, eyni zamanda Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi kimi ağır bir mirasın gələcək nəsillərə ötürülməsinin qarşısı alındı. Azərbaycan son 200 ildə torpaq itirən dövlətdən, itirdiyi əraziləri geri alan ölkəyə çevrildi. Həm də bunu olduqca mürəkkəb geosiyasi vəziyyətdə, dünyada ikili standartların hökm sürdüyü, düşmən səmtində yer alanların çox olduğu bir şəraitdə bacardı. Bütün bunlar tarixi Qələbənin nə dərəcədə möhtəşəm olduğunu bir daha göz önündə canlandırır, hər bir soydaşımızın "Mən azərbaycanlıyam" sözlərini daha böyük fəxrlə səsləndirməsinə səbəb olur.

Barəsində hələ çox danışılacaq Zəfərimizin qayəsində, kökündə duran başlıca səbəb, həlledici amil xalqımızın vahid amal uğrunda dəmir yumruq kimi birləşməsi, öz Liderinə sonsuz güvəni, onun qərarlarını bir an belə tərəddüd etmədən dəstəkləməsidir. Bu mənada Azərbaycan xalqına sonsuz sevinc bəxş edən Qələbəmizin əsas memarı heç şübhəsiz ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bilən Prezident İlham Əliyev ölkəmizin müstəqil dövlət kimi mövcudluğu, sabit, davamlı və inamlı inkişafının təmin edilməsi istiqamətində mühüm addımlar ataraq, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını uğurla reallaşdırararaq tarixin ən güclü Azərbaycanını yaratdı. Dövlət başçısı tərəfindən Ulu öndərin müəllifi olduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi Azərbaycanı dünyanın ən dinamik inkişaf edən ölkələri sırasına daxil etdi, onu bugünkü yüksəliş və tərəqqi zirvəsinə çatdırdı. Beləliklə, Azərbaycan dünyanın əmin güclü ölkələrindən biri kimi ərazi bütövlüyünün bərpası istiqamətində müqəddəs savaşa qatıldı.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu savaşın gedişində çoxsaylı uğurlu hərbi əməliyyatları ilə bütün dünyaya səs saldı, yeni əsrin yeni müharibə modelini yaratdı. Buna paralel olaraq Azərbaycan Prezidenti diplomatik, siyasi və informasiya cəbhəsində nə qədər mahir strateq, yenilməz sərkərdə olduğunu da konkret fəaliyyəti ilə isbata yetirdi. Azərbaycan dövlət başçısının müdrikliyi, təmkini, nəyi, necə, nə vaxt



*Bəxtiyar İslamov, YAP Gənclər Birliyinin sədri*

etmək lazım olduğunu dəqiq bilməsi, böyük uğurla xalq-Prezident-ordu vəhdətini formalaşdırması, Silahlı Qüvvələrimizdə böyük ruh yüksəkliyi yaratması böyük Qələbənin qazanılmasında müstəsna rol oynadı.

Daha bir mühüm fakt odur ki, Prezident İlham Əliyev məqsədyönlü siyasəti ilə ötən dövr ərzində xalqın milli, mənəvi birliyini daha da gücləndirdi, cəmiyyətdə dəyərlər sisteminin milli maraqlar üzərində formalaşmasına daha dinamik təsir göstərdi. Bu səbəbdən təsadüfi deyil ki, Prezident İlham Əliyevin hakimiyyətdə olduğu dövr ərzində olduqca vətənpərvər gənc nəsil yetişdi, məhz onlar Müzəffər Ali Baş Komandanın əmrinə müntəzir müsəlləh əsgərlər olaraq Vətən torpağını düşmən tapdağından azad etdilər. Xalqımız haqlı olaraq bu gəncləri ilə fəxr edib, edir və edəcək. Prezident İlham Əliyev cari ilin yanvarın 14-də Şuşada olarkən Azərbaycan gəncləri ilə bağlı qeyd edib: "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Qeyd edilənlər bir daha olduqca aydın şəkildə nümayiş etdirir ki, Prezident İlham Əliyevin fəaliyyəti boyu gənclərə daim diqqət və qayğı göstərməsi mühüm əhəmiyyət daşıyıb, konkret nəticələrə, daha güclü Azərbaycan qurmağa hesablanıb. Dövlət başçısının xüsusi diqqəti Azərbaycan gəncliyinin cəmiyyətin aparıcı qüvvəsi kimi çıxış etməsini, sabitliyin, təhlükəsizliyin təmin olunmasında, möhkəmlənməsində xüsusi rol oynamasını şərtləndirib. Bu siyasətin ən yüksək nəticəsi isə özünü Vətən müharibəsində, tarixi Qələbənin qazanılmasında bariz şəkildə göstərdi.

Hələ ötən ilin iyul ayında Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi təxribatlar fonunda on minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbələrində qeydiyyatdan keçmişdi. Vətən müharibəsinin ilk günlərində həmin gənclərin böyük əksəriyyəti artıq əldə silah düşmənə qarşı döyüşürdü. Həmin vaxt Ermənistan ordusunda fərarilik görünməmiş bir həddə çatdığı halda Azərbaycan gəncləri israrla yerli səfərbərlik idarələrindən dərhal ordu sıralarına, döyüş bölgəsinə aparılmaların tələb edirdilər. Bu gənclərin sırasında yer aldığı rəşadətli Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il sentyabrın 27-dən noyabrın 10-dək Ermənistanın işğalı altında olan 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sıg?ırt, S?u?ku?rataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar gənc nəsil canı-qanı bahasına üçrəngli Azərbaycan bayrağını azad etdiyi ərazilərdə əbədiyyən ucaltdı. Onların timsalında bütün dünya Azərbaycan gəncinin qəhrəmanlığından, nəyə qadir olmasından xəbər tutdu, ermənilərin bu vətənpərvər igidlərin qarşısında tab gətirə bilmədiyini gördü. Öz cəsurluğu seçilən, rəşadət dolu döyüş yolu keçən gənclər dillərə dastan olacaq qəhrəmanlıq yolu keçdilər. Təsadüfi deyil ki, müharibə zamanı Vətən uğrunda canından keçərək şəhidlik mərtəbəsinə ucalanların böyük əksəriyyəti gənclər oldu. Anım günü də elə şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir

Amma Azərbaycan gənci, onun ordusu, yenilməz sərkərdəsi 2020-ci il 10 noyabr tarixində düşməni tam diz çökdürdü, onu hərbi kapitulyasiyasını qəbul etməyə vadar etdi. Bununla işğal altında qalan digər ərazilər də azad olunaraq əsl sahibinə qaytarıldı. Vətən müharibəsində şücaət göstərmiş Azərbaycan gənclərinin qəhrəmanlığı xalqımız, o cümlədən Müzəffər Ali Baş Komandan tərəfindən layiqincə qiymətləndirildi. On minlərlə gəncin savaşda göstərdikləri xidmətlərə görə müxtəlif orden və medallarla təltif edilməsi, onların xüsusi diqqət və qayğı ilə əhatə olunması da bunun təsdiqidir.

Amma Azərbaycan gənci təkcə əldə siahla düşmənə qarşı mübarizə aparmırdı. Onlar Ermənistana, onun dünyanın müxtəlif ölkələrinə səpələnmiş diasporuna, lobbisinə qarşı informasiya savaşında, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında da önəmli missiya yerinə yetirdilər, bunun üçün müasir texnologiyaların və digər vasitələrin yaratdığı imkanlardan məharətlə faydalanmaq bacarığını nümayiş etdirdilər. Özü də bu istiqamətdə aparılan savaş cəbhədə gedən müharibədən az əhəmiyyət kəsb etmirdi. Savaş müddəti boyu faşist Ermənistanı həm öz cəmiyyətinə, həm də dünya ictimaiyyətinə feyk məlumatlar verərərək həqiqətləri təhrif etməyə çalışırdı. Amma bu yalanlar gənclərimizin də fəal iştirakı ilə Azərbaycan tərəfindən vaxtında ifşa edilirdi və elə bu səbəbdən terrorçu ölkə informasiya savaşında da Azərbaycana məğlub oldu.

Şübhəsiz ki, informasiya savaşında Ermənistana, onun diaspor və lobbisinə ən böyük zərbəni dərin analitik təfəkkürə, xarici dillərdə sərbəst nitq mədəniyyətinə, böyük natiqlik istedadına malik olan Prezident İlham Əliyev vurdu. Onun istər Vətən müharibəsi dövründə, istərsə də tarixi Zəfərdən sonra xalqımıza etdiyi çoxsaylı müraciətlər, həmçinin beynəlxalq auditoriyaya təsir imkanı baxımından seçilən dünyanın müxtəlif ölkələrinin otuza yaxın aparıcı media orqanına Azərbaycan, türk, rus və ingilis dillərində verdiyi müsahibələr bu məsələdə həlledici rol oynadı. Məhz Prezident İlham Əliyev Azərbaycana qarşı informasiya blokadasını uğurla yardı, müharibənin gedişində və müharibədən sonra onlarla aparıcı xarici media orqanına müsahibələrində dünyanı əsl həqiqətlərdən xəbərdar etdi. Beləliklə, hərbi əməliyyatlarla yanaşı, siyasi-ideoloji informasiya müharibəsinə də rəhbərlik edən Prezident İlham Əliyevin bu müstəvidə yanında yer alanlar sırasında gənclər də xüsusi ilə seçilirdi. Yüksək hazırlıq səviyyəsi, intellektual qabiliyyətləri ilə seçilən bu gənclər erməni yalanlarının ifşası, düşmənin mülki əhaliyə qarşı törətdiyi qətliam, yol verdiyi digər müharibə cinayətləri haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına müstəsna töhfələr verdilər. Sosial şəbəkələrdə, yerli və xarici media orqanlarında erməni yalanları həmin gənclər tərəfindən biribirinin ardınca ifşa edilir, bunlara paralel olaraq müxtəlif aksiyalar vasitəsilə əsl həqiqətlər, reallıqlar beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə çatdırılırdı. Məhz onların da sayəsində Ermənistan, erməni diasporu və lobbisi informasiya savaşında Azərbaycana yenildi, bununla gənclərimiz informasiya müharibəsində fəal iştirak edərək böyük Qələbəyə öz töhfələrini verdilər. Elə bu səbəbdən tam qətiyyətlə demək olar ki, qazanılan Qələbə həm də Azərbaycan gəncliyinin qüdrəti kimi əbədiləşdi.

Düşməni diz çökdürən, torpaqlarını işğalçılardan təmizləyən, BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrinin həyata keçirilməsini özü təmin edən, regionu və dünyanı erməni faşizmindən xilas edən Azərbaycan qarşısında artıq yeni mühüm vəzifələr durur. Bu, azad edilmiş ərazilərin etibarlı müdafiəsinin təşkili, o yerlərdə abadlıq-quruculuq işlərinin həyata keçirilməsi, müasir infrastrukturun yaradılması, keçmiş məcburi köçkünlərin Böyük Qayıdışı üçün digər müvafiq işlərin görülməsidir. Postmüharibə dövründə bu istiqamətdə Azərbaycan dövləti tərəfindən artıq genişmiqyaslı işlər görülüb və görülməkdədir. Prezident İlham Əliyevin bu ilin 7 iyul tarixində imzaladığı Fərmanla Azərbaycanın tərkibində uydurma şəkildə ermənilərin xeyrinə yaradılmış Dağlıq Qarabağ inzibati ərazisi və onun muxtariyyət statusunun artıq tarixin arxivinə getməsi ilə yaradılan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında hazırda intensiv bərpa, quruculuq işləri həyata keçirilir. Yenə bu prosesdə ön sırada gənclərimizi də görmək mümkündür. Azad edilən ərazilərin dirçəldilməsi istiqamətində gənclər Prezidentin çağırışlarına və quruculuq prosesində fəal iştirak etməyə hazırdırlar.

Qarabağ və Şərqi Zəngəzurda dövlət tərəfindən həyata keçirilən işlər və qarşıdakı müddət ərzində reallaşdırılması nəzərdə tutulan layihələr əsas etibarı ilə sosial xarakterlidir. Burada qurulan sosial infrastruktur və dövlət tərəfindən görülən digər işlər doğma yurd-yuvalarına qayıdacaq insanların rahatlığına, təhlükəsiz şəraitdə yaşamalarına xidmət edir. Elə gənclər də bu prosesə öz töhfələrini verməyə çalışırlar. Aparılan bərpa-quruculuq prosesləri fonunda Azərbaycan eyni zamanda işğal müddətində bu yerlərdə törədilən erməni vandalizmini də bütün dünyaya nümayiş etdirir. Bu prosesdə də gənclərin yüksək fəallığı özünü qabarıq büruzə verir.

Bu abadlıq-quruculuq işləri bu gün xatirələrini ehtiramla andığımız şəhidlərimizin, Vətən müharibəsi iştirakçılarının fədakarlığı nəticəsində baş tutur. Elə quruculuq, bərpa işlərinə həm də şəhidlərimizin bir anım abidəsi kimi yanaşmaq mümkündür. Bu qəbildən olan qəhrəmanlarımızın bizə əmanət etdikləri Vətən, onların doğmaları dövlətin və cəmiyyətin xüsusi diqqət və qayğısı ilə əhatə olunublar. O da təqdirəlayiq haldır ki, müxtəlif qurumları təmsil edən gənclər şəhid ailələrinə, ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə, Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinə də yardımçı olur, bu istiqamətdə genişmiqyaslı fəaliyyət göstərirlər. Prezident İlham Əliyevin sosial siyasətində sözügedən kateqoriyadan olan insanlara xüsusi qayğı mühüm yer tutur. Bunlar fonunda şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına, müharibə qəhrəmanlarının və onların ailə üzvlərinə dövlət tərəfindən göstərilən hərtərəfli qayğı nümunəvi xarakterə malikdir. Amma təbii ki, belə insanlara təkcə dövlət yox, bütün cəmiyyət yüksək diqqət və qayğı göstərməlidir. Bu mənada gənclərin sözügedən kateqoriyadan olan insanlarla fəal təması, onlara göstərdikləri yardımlar və köməkliklər təbii xarakter daşıyır.

Bu gün gənclərin qarşısında duran ən vacib missiyalardan biri Prezident İlham Əliyevin yaratdığı tarixin ən güclü Azərbaycanını layiqincə qorumaq, gələcək nəsillərə daha güclü, daha qüdrətli və daha firavan bir dövləti təhvil verməkdir. Bu, müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlmək Azərbaycan gəncləri üçün həyat kredosudur.

# Dövlət Sərhəd Xidmətində Anım Günü qeyd edilib

**Sentyabr ayının 27-də Dövlət Sərhəd Xidmətində (DSX) müqəddəs torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, üçrəngli zəfər bayrağımızı azad edilən torpaqlarda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə əbədi ehtiramın ifadəsi olan Anım Günü münasibətilə tədbir keçirilmişdir.**

DSX-dən SİA-ya bildirilib ki, dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı şəxsi heyətə çatdırılmışdır. Saat 12:00-da Vətən Müharibəsində həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev çıxış edərək tariximizin ən böyük sərkərdəsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında "DƏMİR YUMRUQ" əməliyyatı nəticəsində 30 illik işğala son qoyularaq ərazi bütövlüyümüzün




torpaqlarımızı Vətənə qovuşduran qəhrəmanlarımızın əziz xatirələrinin hər zaman rəhmətlə və ehtiramla yad ediləcəyi, onların gələcək nəsillərə qoyduğu qəhrəmanlıq mirasını qədirbilən xalqımızın daima uca tutacağı vurğulanmışdır.

Şəhidlərin xatirələrinin əbədiləşdirilməsi, onların ailələrinin və qazilərin sosial müdafiəsinin dövlət siyasətinin əsas istiqamətlərindən olduğu bildirilmiş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə Anım və Zəfər günlərinin, xüsusi orden, medal və fəxri adların təsis edildiyi qeyd edilmişdir.

Vətən Müharibəsində işğalçı düşmən qüvvələrinə qarşı fədakarlıqla döyüşən sərhədçilərin bu gündə səngərdə və sərhəddə böyük əzmlə xidmət apardıqları, ərazi bütövlüyü bərpa edilmiş ölkəmizin bütün hüdudları boyunca dövlət sərhədlərinin toxunulmazlığının qətiyyətlə təmin olunacağı, milli maraqlarımızın ən yüksək









bərpa olunduğunu, 44 gün davam edən Vətən müharibəsinin Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq qələbəsi ilə başa çatdığını, Tarixi Zəfərimizin təmin edildiyini vurğulamışdır.

Vətən müharibəsi zamanı Dövlət Sərhəd Xidmətinin qarşısında Müzəffər Ali Baş Komandanımız tərəfindən qoyulmuş döyüş tapşırıqlarının uğurla icra olunduğu, Azərbaycan sərhədçilərinin qəhrəmanlıq və şücaət göstərmələri qeyd olunmuşdur.

Torpaqlarımızın azad edilməsi uğrunda haqq savaşında Silahlı Qüvvələrimizin, o cümlədən Dövlət Sərhəd Xidmətinin heyəti arasında şəhadət zirvəsinə ucalan, yaralananların olması qeyd edilmiş, bizlərə qələbə sevincini yaşatmış şəhidlərimizin fədakarlığının yaddaşlardan heç bir zaman silinməyəcəyi, axıtdıqları qanları ilə müqəddəs səviyyədə müdafiə ediləcəyi ifadə olunmuşdur. Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti Vətən Müharibəsinə həsr olunmuş "44 gün 44 an" sənədli filmini izləmişdir.

## Quran Marxuliya: Azərbaycan torpaqları Prezident İlham Əliyevin qətiyyəti sayəsində işğaldan azad edildi

***Bu gün Azərbaycanda şəhidlərin Anım Günü qeyd olunur. Bu, biz Gürcüstan vətəndaşları üçün də mühüm bir gündür. Azərbaycanın torpaqlarını işğaldan azad etməsi Gürcüstan üçün də real imkanlar yaradır.***

Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq, tarixçi alim Quram Marxuliya söyləyib. Onun sözlərinə görə, Azərbaycan xalqı xoşbəxt xalqdır. Bu gün bütün dünyada Azərbaycan şəhidlərinin xatirəsi ehtiramla anılır. Bu gün həm də Azərbaycan xalqını Qələbəyə aparan yolun başlanğıcıdır. Azərbaycan öz torpaqlarını işğaldan azad edib.

"Mən bu Qələbənin qazanılmasında Azərbaycan Prezidenti İlham Əliyevin rolunu xüsusi qeyd etmək istəyirəm. Məhz Prezident İlham Əliyevin əzmkarlığı, qətiyyəti nəticəsində Azərbaycan Ordusu inamlı Qələbə qazanıb. Azərbaycan Prezidenti xalqının önündə oldu. Xalq və Ordu bu əzm, bu cəsarət və qətiyyət ətrafında sıx birləşərək Qələbəni təmin etdi", - deyə politoloq vurğulayıb.



# Xalqımız bundan sonra da hər zaman Anım Gününü böyük ehtiramla yad edəcək, öz şəhidlərinin ruhu qarşısında baş əyəcək

*YAP Təftiş komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynovanın yap.org.az-a müsahibəsi*



***-Sevinc xanım, bildiyimiz kimi 27 sentyabr tarixi ölkəmizdə Anım Günü kimi qeyd olunacaq. Ötən ilin 27 sentyabrında Vətən müharibəsi başladı. Artıq bu hadisədən bir il ötür. Bu barədə nə deyə bilərsiniz?***

- 27 sentyabr tarixi rəşadətli və müzəffər ordumuzun yenilməz sərkərdəsi, Ali Baş Komandanımız, ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Anım Günü günü kimi Azərbaycan tarixində ilk dəfə qeyd olunur. Bu sərəncam ölkə Prezidentinin torpaqlarımızın azadlığı uğrunda böyük şücaət göstərmiş, bayrağımızı işğaldan azad edilən torpaqlarda dalğalandırmış və ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərimizə, əsgər və zabitlərimizə dərin ehtiram əlaməti olaraq imzalanıb. Bu şəhidlərin ruhlarına və onların ailələrinə, doğmalarına, bütövlükdə isə Azərbaycan xalqına ən ali ehtiramın göstəricisidir. Xalqımız bundan sonra da hər zaman Anım Gününü böyük ehtiramla yad edəcək, öz şəhidlərinin ruhu qarşısında baş əyəcək. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin.

Bəli, 44 günlük Vətən müharibəsi son 200 il ərzində mərhələlərlə azərbaycanlılara,xalqımıza qarşı yönəlmiş işğalçılıq siyasətinə, Avroasiya məkanında ən uzunmüddətli olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoydu. Bununla da ordumuz XXI əsrin müasir müharibəsinin aparılması taktika və strategiyasını da yaratdı. Hansı ki, hazırda dünyanın ən inkişaf etmiş ölkələri bunu hərbi dərsliklərə salaraq öyrənirlər. Həmçinin Vətən müharibəsində onilliklərlə səbirlə qəlbində torpaq miskinini saxlayaraq rəhbərinin lazım bildiyi zaman onun ətrafında sıx birləşərək, ən ümidə olan arzusuna nail olmasının nümunəsini yaratdı. Azərbaycan əsgəri isə XXI əsrin bir etalon əsgəri nümunəsini göstərdi.

Eyni zamanda, Vətən müharibəsində əldə olunan qələbə ilə erməni təbliğat maşınının 200 il ərzində yaratdığı miflər, "böyük Ermənistan" xülyası, "ermənilərin döyüşkən xalq olduğu" haqqında uydurmaları da param-parça oldu.

***-Siz tarixi məqamlara toxundunuz. Ermənilərin ərazilərimizə köçürülməsi faciələrimizə, torpaqlarımızın işğalına səbəb oldu...***

-Xalqımıza qarşı aparilmiş bu düşmənşilik siyasətinin tarixi köklərinin araşdırılması ilə bağlı müstəqillik illərində davamlı olaraq aparilan araşdirmalar , təhlillər 44 günlük Vətən müharibəsindən ötən dövrdə daha da genişlənmişdir. Ermənilərin xalqımıza məxsus olan tarixi ərazilərdə həyata keçirdikləri soyqırım siyasətinə isə ilk siyasi-hüquqi qiymət Ulu Öndər Heydər Əliyev tərəfindən verilmişdir.

Məlumdur ki, ermənilərin çar Rusiyası tərəfindən XIX əsrin əvvələrindən etibarən Türkmənçay (1828 ) və Ədirnə ( 1829 ) müqavilələrinin şərtlərinə əsasən İrandan və Turkiyədən tarixi torpaqlarımıza İrəvan xanlıgının ərazisinə köçürülməsi ilə bölgənin etnik-dini tərkibini dəyişdirdi və xalqımızın gələcək faciələrinin əsasını qoydu. Çox keçmədən ermənilər tərəfindən aboriqen xalqa qarşı soyqırım və deportasiya başlandı. Belə ki, son 200 il ərzində ermənilər dinc azərbaycanlılara qarşı dəfələrlə qətlimalar törətdilər, tarixi ərazilərimizi zəbt etdilər , məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişməyə başlayıb, münbit əraziləri ələ keçirməyə çalışıb, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırıblar.

Məsələn , Çar I Nikolayın 1828-ci il, martın 21-də, yəni xalqımızın əziz bayramlarından olan Novruz bayramı günündə imzaladıgı fərmanla İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmış erməni vilayətinə daxil edilən 1111 kənddən yalnız 62-də ermənilər yaşayırdı. 62 kəndin isə 14-nün adı erməni mənşəli idi. Çar Rusiyasının məmuru N.Şavrov 1911-ci ildə açıq etiraf edirdi ki, "hazırda Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyonundan çoxu yerli əhali deyil. Onlar bu torpaqlara bizim tərəfimizdən köçürülüb".

Rusiya inqilablarının yaratdığı şəraitdən sui-istifadə edərək erməni qəsbkarları 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetiriblər. 1918-1920-ci illər isə xalqımızın yaddaşında erməni silahlı quldur dəstələrinin xüsusi qəddarlığı ilə yadda qaldı. Həmin illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda, Göyçayda on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalıb, yaşadıqları yerlərdən qovulublar. İnsanlara kütləvi şəkildə işgəncələr verilib, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edilib.

1918-ci ildə 29 may tarixdə Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazda sülh və əmin-amanlıq yaradılması xatirinə qədim Azərbaycan şəhəri İrəvanı ətrafındakı torpaqlarla birlikdə ermənilərə güzəştə qətdi.Beləliklə, Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq Azərbaycan torpaqları hesabına erməni dövləti yaradıldı.

Bu vaxtdan etibarən Rusiyanın hərtərəfli köməyi ilə ermənilər tərəfindən Qərbi Azərbaycan torpaqlarının azərbaycanlılardan təmizlənməsi prosesi daha da sürətləndi, ermənilər köç saldıgı ərazilər azərbaycan torpaqları hesabına şərqə dogru daha da genişləndirildi.

Sovet hakimiyyəti illərində də işğal siyasəti davam etdirilib. 1918-1920-ci illərdə 114 min kvadrat kilometr ərazisi olan Azərbaycan sovet dövründə 86 min kvadratkilometrədək kiçildildi. 1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 min azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdi. 1988-ci ildə isə Dağlıq Qarabağ münaqişəsinin başlaması ilə daha 250 min azərbaycanlı öz doğma yurdundan qovulub. Bununla da Ermənistan monoetnik dövlətə çevrilib. 1988-ci ildə başlayan Qarabağ hadisələri, xarici havadarları tərəfindən silahlandırılan ermənilər ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü( Başlıbel,Agdaban,Baqanis -Ayrım kəndlərində törədilmiş vəhşiliklər və Xocalı qətliamı ), yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi və Azərbaycan ərazilərinin 20 faizinın işğalı ilə nəticələndi.

Amma Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ədalət bərpa olundu. Ötən ilin 27 sentyabrından başlanan və 44 gün davam edən Vətən müharibəsində şanlı Zəfər qazanıldı. Bununla da, Azərbaycan son iki yüz illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Qələbəmizin əldə olunmasında mühüm amillərdən biri də tarixi şəhərimiz olan Şuşanın işğaldan azad edilməsi oldu. Şuşanın azad edilməsindən bir gün sonra - Dövlət Bayrağı Günündə daha 72 yaşayış məntəqəsinin, ümumilikdə isə 300-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi Nikol Paşinyanı məcbur etdi ki, noyabrın 10-da Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında bəyanatı imzalasın. Bu sənəd Ermənistanın hərbi kapitulyasiyası deməkdir.

Bütövlükdə, 44 günlük Vətən müharibəsi Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya göstərdi. Xüsusilə qeyd etmək istəyirəm ki, bu dövrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev həm hərb meydanında, həm diplomatik müstəvidə, həm də informasiya müharibəsində böyük üstünlük nümayiş etdirdi. Təbii ki, qazandığımız qələbədə bu amil müstəsna rol oynayır.

***- Vətən müharibəsində qazanılan qələbədə ölkəmizdə milli birliyimizin və həmrəyliyimizin rolu hansı səviyyədə oldu?***

- Bilirsiniz ki, Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə son 18 il ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Bu illər ərzində ölkəmizin iqtisadiyyatı dəfələrlə artıb, əhalinin sosial rifahı daha da yüksəlib, Azərbaycanın beynəlxalq müstəvidə nüfuzu artıb və dünyada etibarlı tərəfdaş imici qazanıb. Ötən illərdə Azərbaycanın təşəbbüsü və müəllifliyi ilə qlobal səviyyədə enerji və nəqliyyat layihələri həyata keçirilib ki, bütün bunlar beynəlxalq aləmdə mövqelərini daha da gücləndirib. Eyni zamanda, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində nüfuzlu beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən sənədlər qəbul edib, ölkəmizin ərazi bütövlüyü dəstəklənib. Bütün bunlar isə, haqq işimizdə bizə güclü dəstək verdi.

Təbii ki, ölkəmizin iqtisadi qüdrətinin artması güclü ordu quruculuğuna da böyük dərəcədə təsir etdi. Bilirsiniz ki, uzun illərdir dövlət büdcəsindən ən çox vəsait, məhz müdafiə xərclərinə ayrılır. Bu da öz məntiqi nəticəsi ilə yekunlaşdı, Azərbaycanın güclü ordusu formalaşdırıldı. Bu gün qürurla deyə bilirik ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Belə bir rəşadətli ordumuz qısa müddətdə düşmən ordusunu məğlub etdi.

Digər vacib məqam isə qeyd etdiyiniz kimi xalqımızın ordumuza güclü dəstəyi, xalq, ordu, Ali Baş Komandanın birliyi - bu üçlük dəmir yumruq kimi birləşdi. Vətən müharibəsi dövründə xalq olaraq güclü birlik və həmrəylik nümayiş etdirdik. Cənab Prezidentin dediyi kimi, düşmənin başına elə yumruq vurduq ki, uzun müddət özünə gələ bilməyəcək.

Təbii ki, burada ölkəmizdə güclü milli həmrəylik və vətəndaş birliyinin xüsusi rolu var. Xatirinizdədirsə, ötən il sentyabrın 27-də müharibə başlayarkən, yaşından asılı olmayaraq on minlərlə vətəndaşımız könüllü olaraq cəbhəyə getmək üçün müraciətlər edirdi. Döyüşə gedənlərdə yüksək vətənpərvərlik ruhu hökm sürürdü. Məhz bu sarsılmaz birlik qələbəmizin əsas amillərindən biridir. Azərbaycanın tarixinə Qələbə səhifəsi yazmış Prezidentimizə xalqın etibarı və ehtiramı sonsuzdur. Müharibənin başa çatmasından sonra azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir.

***-Vətən müharibəsi zamanı ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların vahid mövqedən çıxış edərək Prezidentimizə və ordumuza dəstək nümayiş etdirməsinin əhəmiyyəti nədən ibarətdir?***

-Azərbaycanda həyata keçirilən islahatlar siyasi sferanı da əhatə edir. Ölkədə yeni siyasi konfiqurasiyanın formalaşması, siyasi münasibətlərin və dialoqun inkişafı ölkədə fəaliyyət göstərən siyasi partiyaların fəaliyyətində əhəmiyyətli dönüş yaradıb. Artıq dövlətçilik, milli maraqlar baxımından bütün siyasi partiyalar (radikal müxalifət istisna olmaqla) vahid mövqedən çıxış edirlər.

Bu mövqe Qarabağ məsələsində də özünü ifadə edir. Xatırladım ki, 15 iyul 2020-ci il tarixində Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribat nəticəsində müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən 43 siyasi partiya ümummilli məsələlərdə, dövlətçiliyimizin qorunmasında həmrəylik nümayiş etdirdi, ölkə Prezidenti, Ali Baş Komandanın ətrafında birləşdi və birgə dəstək bəyanatı imzaladılar. 27 sentyabr 2020-ci il tarixində də dünya gördü ki, Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar ölkədə fəaliyyət göstərən 50 siyasi partiyanın ölkə Prezidentinin, Ali Baş Komandanın ətrafında birləşdi və birgə dəstək bəyanatı imzaladılar.

Qeyd edim ki, siyasi partiyalar tərəfindən ümumilikdə 8 birgə bəyanat və 2 müraciət imzalandı. Burada "Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatları ilə əlaqədar", "Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair", "Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı", "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlaqədar" bəyanatlar, həmçinin "Dağlıq Qarabağ məsələsində Fransanın mövqeyinə dair" və müharibə dövründə 16 beynəlxalq təşkilata Azərbaycan ziyalılarının və vətəndaş cəmiyyəti üzvlərinin (o cümlədən 50 siyasi partiyanın) müraciətləri xüsusi olaraq qeyd olunmalıdır.

Həmin birgə bəyanat və müraciətlərin imzalanması milli məsələlərdə ölkədə hər hansı fikir ayrılığının istisna olunduğunu göstərdi. Siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin təcəssümüdür. Bütün bunlar cənab Prezidentin siyasi iradəsini, çoxpartiyalı siyasi sistemin və demokratik cəmiyyətin inkişafını əks etdirən, siyasi islahatların dərinləşməsinin əsasını təşkil edən, dövlətçiliyin təməl prinsiplərinin möhkəmlənməsini təmin edən əhəmiyyətli hadisələrdir.

# "Qafqazda fırtına"- nüfuzlu Rusiya analitiki "Kommersant"da nə yazır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Rusiyanın nüfuzlu "Kommersant" qəzetinin bugünkü nömrəsində Strategiya və Texnologiyaların Təhlili Mərkəzinin direktoru Ruslan Puxovun 2-ci Qarabağ müharibəsinin nəticələri haqqında analitik məqaləsi dərc olunub. Məqaləni oxucularımıza təqdim edirik.**



27 sentyabr 2020-ci ildə başlayan 44 günlük 2-ci Qarabağ müharibəsi təkcə ona qoşulan Ermənistan və Azərbaycan üçün dönüş nöqtəsi deyil. Bu müharibə Cənubi Qafqazda siyasi və hərbi güc balansını dəyişdirdi, Türkiyənin regional bir güc olaraq daha da yüksəlməsinə töhfə verdi, Rusiyanın Zaqafqaziyada təsirinin real sərhədlərini, ABŞ və Aİ ölkələrinin postsovet məkanının bu hissəsində real maraq dərəcəsini izah etdi. Azərbaycanın pilotsuz uçuş aparatları və döyüş sursatı ilə hava üstünlüyünə nail olması təkcə müharibənin nəticəsini təyin edən əsas amillərdən biri deyil, həm də bu miqyaslı silahlı toqquşmalarda hərbi sənətin inkişafında bir addım idi.

Strateji baxımdan Qarabağdakı müharibə diqqətli müşahidəçilər üçün gözlənilməz deyildi. Bir neçə il əvvəl Strategiya və Texnologiyaların Təhlili Mərkəzi (CAST) "Fırtınanı Gözləyənlər: Cənubi Qafqaz" adlı kitab nəşr etdirdi. 2020-ci ilin sentyabr ayında baş verən faciənin ildönümündə CAST tədqiqatçıları və həmkarlarını yeni "Qafqazda Fırtına" (http://cast.ru/upload/iblock/1dc/1dc6cf4ce2c1d6808d23beeceafc3234.pdf) vaxtsız gedən Konstantin Makienkonun xatirəsinə) adlı yeni kollektiv əsərdə artıq görünən və potensial nəticələrin müzakirəsinə dəvət etdilər. 26 illik dondan sonra Ermənistan-Azərbaycan münaqişəsinin nə qədər tez və güclü şəkildə yenidən başladığını nəzərə alsaq, Qarabağdakı mövcud vəziyyəti sabit hesab etmək olmazdı. Əgər belədirsə, nəinki son müharibənin dərslərini öyrənmək, həm də onun təyin etdiyi dinamikanı izləmək lazımdır.

Hər şeydən əvvəl, silahlı toqquşmanın nəticələrini məğlub olanları şoka salan və onlara dərin bir yara vuran qalibləri də tamamilə qane etmədiyinə əsaslanmalıyıq. Yaxın gələcəkdə ermənilərin qisas almaq imkanları görünməsə, Azərbaycan Qarabağın bütün ərazisinə nəzarəti tam və qəti şəkildə bərpa etməyə çalışacaq. Rusiya da çətin vəziyyətdə qaldı. Bəzi beynəlxalq analitiklər atəşkəs və razılaşmaya görə Rusiyanın sülhməramlı qüvvələrinin Qarabağda yerləşdirilməsi ilə Rusiya qoşunlarının hər 3 dövlətin ərazisində olmasını (Ermənistanın Gümrüdəki bazasında, Azərbaycan tərəfindən beynəlxalq səviyyədə tanınmış ərazilərində yerləşdiriləcək sülhməramlılar və Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgəsindəki kontingenti) Moskvanın qələbəsi adlandırdılar.

Bu fikir yalnız səthi deyil, əslində səhvdir. Ermənistan, Abxaziya və Cənubi Osetiyadakı rus bazaları ilə bağlı vəziyyəti bir kənara qoyaraq, Rusiyanın Qarabağda sülhməramlı olmasının şərtliliyini qeyd etmək lazımdır. Buradakı Rusiya sülhməramlılarının 5 illik mandatı, yəni, əslində, bunu uzatmaq olar, amma belə bir uzadılma olarsa, bu, asan olmayacaq. Bakı müttəfiqi Ankara ilə birlikdə artıq Azərbaycanın nəzarətində olan bölgənin tam olaraq geri qaytarılması üçün Moskvaya təzyiq göstərməyə çalışır.

Beləliklə, bölgədəki mövcud status-kvo qeyri-sabitdir. Müttəfiq Ermənistan və tərəfdaş Azərbaycan arasında uzunmüddətli tarazlığın qorunması ilə bağlı Rusiyanın təsirini, Moskvanın münaqişə zonasında vəziyyəti idarə edən arbitr rolunu saxlaması real deyil. Moskvanın vasitəçiliyi ilə 1994-cü ildə həyata keçirilən atəşkəs, dörddə bir əsrdən çox davam etdi, lakin nəticədə yeni bir müharibənin qarşısını ala bilmədi. Qarabağın xarabalıqları üzərində buna bənzər bir şeyi yenidən qurmağa çalışmaq mənasızdır.

İndiyə qədər Rusiya rəhbərliyi taktiki səviyyədə manevrlərdə nisbətən uğur qazanıb. İkinci Qarabağ müharibəsində rəqiblər arasında balansı qoruyan Moskva Ermənistanı müttəfiq, Azərbaycanı tərəfdaş olaraq saxladı; Türkiyənin Qafqazda varlığının gerçəkliyini tanıyaraq, İrəvanla Bakı arasında yeganə vasitəçi kimi özünü saxladı; Rusiyanın maraqlarına sadiq olan Ermənistanın hər hansı bir rəhbərliyi ilə işləməyə hazır olduğunu bildirdi. Eyni zamanda, Rusiya "Dağlıq Qarabağın statusu" məsələsini müzakirə etməkdən məharətlə yayınır. Bütün bu manevrlər yaxşıdır, amma bu yalnız vaxt qazanmaq baxımından əhəmiyyətli olaraq qalır. Bu son hissədə vaxt itirmək üçün diqqətli olmaq lazımdır.

Strateji olaraq Moskva, müharibə edən tərəflər arasında iqtisadi əməkdaşlıq layihələrini təşviq etmək, SSRİ-nin dağılmasından sonra parçalanmış bölgənin daxili birliyini artırmaq, şimal-cənub və şərq-qərb xətləri boyunca nəqliyyat və digər kommunikasiyaları inkişaf etdirmək üçün bir yol göstərdi. Rasional baxımdan bu, düzgün yanaşmadır və konkret xüsusi nəticələr əldə edərək onu inkişaf etdirməyin mənası var. Bir nöqtədə yığılmış pozitiv, prinsipcə vəziyyətin dinamikasını dəyişə bilər. Praktiki olaraq Ərəb-İsrail qarşıdurmasını aradan qaldırmaq və "Yeni Yaxın Şərq" qurmaq üçün eyni vaxtda buna bənzər bir şey tətbiq etməyə çalışdılar. Bölgə xaricində olanlar da daxil olmaqla bir çox oyunçunun maraqlarının toqquşduğu və Gürcüstanla bağlı uzun müddətdir davam edən bir sıra münaqişələrin olduğu Cənubi Qafqazda nəticələrin daha təsiredici ola biləcəyinə inanmaq üçün xüsusi bir səbəb yoxdur.

Yaxın Şərqə istinad təsadüfi deyil. Postsovet məkanının bir post-imperiya cəmiyyəti olaraq dərinləşən geri dönməz parçalanması ilə Rusiyadan getdikcə uzaqlaşan Zaqafqaziya tədricən Yaxın Şərq bölgəsinə yaxınlaşır və gələcəkdə onun bir hissəsi ola bilər. ABŞ-ın və Fransanın Qarabağda atəşkəsə qoşulması simptomatikdir. Bu situativ diqqət çatışmazlığı deyil. Amerika və Avropa deyil, Türkiyə, İran və İsrail Azərbaycan və Ermənistan arasında baş verənlərə getdikcə daha çox təsir edir. Bu vəziyyət Rusiya siyasətini postsovet və ya rus-qərb kontekstində deyil, daha geniş Yaxın Şərq-Zaqafqaziya qonşuluğunda daha uyğun yanaşmalar axtarışına yönəltməlidir.

İkinci Qarabağ müharibəsindən sonra hökm sürən şəraitdə Rusiyanın, ümumiyyətlə, Zaqafqaziya bölgəsində və xüsusən də, Ermənistan-Azərbaycan münaqişəsində yeni bir hədəf təyin etməsinə ehtiyacı olduğu iddia edilə bilər. Milli maraqlarımızı qorumaq və təbliğ etmək üçün də uyğun bir strategiyaya ehtiyacımız var.

Rusiyanın və ATƏT-in Minsk Qrupunun digər həmsədrlərinin Qarabağ üzrə uzunmüddətli səyləri birmənalı nəticəyə gətirib çıxarır. Qarabağ münaqişəsinin son həllinə yalnız diplomatik yolla, hökumətlərarası səviyyədə nail olmaq mümkün deyil. Sülh yolu, yaxın gələcəkdə praktiki olaraq inanılmaz olan iki ölkənin geniş elit qruplarının və bütövlükdə barışığa doğru real hərəkətini tələb edir. Məsələnin hərbi həlli var, lakin bu, Rusiya sülhməramlıları ilə birbaşa toqquşmanı ehtiva edir. Bu ciddi bir maneədir, ancaq xarici hərbi dəstəyi ilə məsələni öz xeyrinə həll etməyə çalışacaq hər hansı bir tərəf üçün çətin ki, aşılmazdır. Beləliklə, Qarabağ uğrunda birinci və ikinci müharibə ilə müqayisədə Rusiya üçün paylar indi çox artdı. Rusiya qoşunları artıq azərbaycanlılarla ermənilərin arasında dayanır. Belə şəraitdə Moskvadan uzaqlaşmaq mümkün olmayacaq və oyunu kənardan təzyiq altında tərk etmək Rusiya üçün böyük nüfuz itkiləri ilə dolu olar.

Bu baxımdan, qarşıdakı 5 ildə Rusiyanın Ermənistan-Azərbaycan istiqamətindəki strateji hədəfi, qarşılıqlı olaraq qəbul edilə bilən sülh müqaviləsi əsasında Qarabağda uzunmüddətli bir sülhə nail olmaqla yanaşı, bölgədə 3-cü müharibənin qarşısını almaq ola bilər. Belə bir müharibənin Rusiya üçün 2020-ci il münaqişəsindən daha çox mənfi nəticələri olacaq. Bu məqsədə münaqişə tərəfləri arasında iqtisadi qarşılıqlı əlaqəni bərpa etmək və şimal-cənub oxu boyunca logistika əlaqələrini inkişaf etdirməklə Ermənistan, Azərbaycan, eləcə də Türkiyə və İrana qarşı aktiv siyasətlə birləşdirməklə nail olmaq olar. Məqsəd təkcə bu oyunçuları Cənubi Qafqazın əlaqəsini bərpa etmək işinə cəlb etmək deyil, əsasən onlardan Rusiyaya təzyiqin qarşısını almaq ola bilər.

Bu yanaşmanın bir hissəsi olaraq Rusiyanın Ermənistanla münasibətlərini yenidən düşünmək və yenidən başlatmaq lazımdır. Rusiyanın burdakı siyasətinin məqsədi Ermənistanla müttəfiq və tərəfdaş münasibətlərini qorumaq ola bilər, ancaq tərəflərin maraqları praqmatik əsasda olmalıdır. Moskva artıq İrəvanın daxili işlərinə qarışmayacağını nümayiş etdirdi və gələcəkdə bu prinsipə riayət edilməlidir. Ermənistanın xarici siyasəti və iqtisadi yönümlülüyü ermənilərin özlərinə aid olan məsələdir, lakin bu baxımdan Moskva İrəvana bu istiqamətdə hər hansı bir qərarın Rusiya ilə münasibətlər üçün konkret nəticələr verəcəyini aydınlaşdırmalıdır. Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü hər iki tərəf üçün faydalı olmalı və təhlükəsizlik və müdafiə sahəsindəki tərəfdaşların öhdəlikləri nəinki açıq şəkildə ifadə edilməli, həm də açıq və açıq şəkildə ifadə edilməlidir.

Türkiyə ilə əlaqələri kökündən yaxınlaşan Azərbaycanla əlaqələr də yenidən qiymətləndirmə və düzəliş tələb edir. Moskvanın məqsədi Bakı ilə dostluq münasibətlərini, iqtisadi, mədəni və elmi əlaqələri qorumaq, Azərbaycanın Türkiyənin peykinə çevrilməsini istisna etmək ola bilər. Ancaq Moskva ilə yaxşı münasibətlərin bunun üçün nə qədər dəyərli olduğunu Bakıya əsaslı şəkildə izah etmək məsləhətdir. İndiki şəraitdə Bakının çoxvektorlu xarici siyasəti, Moskva ilə Ankara arasında balanslaşdırılması mümkün olan maksimumdur.

İkinci Qarabağ müharibəsindən sonra Rusiya strategiyası Zaqafqaziyada Azərbaycan Silahlı Qüvvələrinin uğurlu hücum əməliyyatının hazırlanmasında və keçirilməsində iştirak edən NATO üzvü və iddialı regional güc Türkiyənin Qarabağda siyasi və hərbi mövcudluğunu nəzərə almalıdır. Moskva artıq Türkiyə ordusunun Ağdamdakı birgə monitorinq mərkəzinin işində iştirakı ilə razılaşıb. Eyni zamanda, Türkiyənin Qafqazda daha da hərbi-siyasi genişlənməsi Rusiyanın təhlükəsizliyi üçün mənfi nəticələrə səbəb olacaq. Lazım gəlsə, Türkiyənin digər bölgələrdəki mövqelərinin zəifliyinə işarə edərək buna son qoyulmalıdır.

Həm rəqabətin, həm də əməkdaşlığın elementlərini özündə birləşdirən Rusiya-Türkiyə münasibətləri Ankaranın təsiri və ambisiyaları ilə təkcə keçmişdə Osmanlı İmperiyasının tərkibində olmuş ölkələrdə deyil, həm də Rusiyanın Şimali Qafqaz bölgəsində, Krımda, Abxaziyada və digər bölgələrində, həmçinin Orta Asiyanın türkdilli ölkələrində genişləndikcə rəqabət güclənir. Türkiyənin Qarabağ münaqişəsinə uğurlu müdaxiləsi bu təsirin əsasını xeyli genişləndirdi. Türkiyənin Azərbaycan və Türkmənistanla ittifaq yaratmaq səyləri artıq Xəzərdə yeni vəziyyət yaradır. Türkiyə ilə birbaşa toqquşma Rusiyanın maraqlarına uyğun gəlmir, lakin onun iddialı ilə mövqeyindən geri çəkilmək qəbuledilməzdir. Türk istiqaməti, ortaqlığın və qarşıdurmanın dialektik olaraq bağlı olduğu xüsusi bir strategiyaya layiqdir.

Nəhayət, hərbi səviyyədə vacib dərslər alınmalıdır. İkinci Qarabağ müharibəsi hərbi işlərdə inqilabın yerli hərbi münaqişələr səviyyəsində özünü necə göstərdiyinin bariz nümunəsinə çevrildi. 1990-cı illərin sonlarında Rusiya üçün Qarabağ, parçalanan Sovet İttifaqı ərazisindəki uzun silahlı münaqişələr zəncirinin ilk halqası oldu. Rusiya bütün bu qarşıdurmalara əvvəldən bu və ya digər şəkildə qarışmışdı. Buna görə də Moskva, son Qafqaz müharibəsinin nəticələrinin Ukrayna rəhbərliyinin Donbasa və ya Gürcüstanın Abxaziya və Cənubi Osetiya ilə bağlı düşüncəsinə və mümkün hərəkətlərinə təsirini nəzərə almalıdır. Dnestryanıdakı kiçik bir rus hərbi kontingenti də coğrafi baxımdan təcrid olunmuş vəziyyətdədir.

Aydındır ki, bütün bu bölgələrdə təkcə siyasi deyil, həm də hərbi strategiyanı aydınlaşdırmaq və düzəltmək lazımdır.

Ruslan Puxov - Strategiya və Texnologiyaların Təhlili Mərkəzinin (CAST) direktoru, "Silah İxracatı" jurnalının naşiri, Rusiya Müdafiə Nazirliyi yanında İctimai Şuranın üzvü

***Tərcümə - Elçin Bayramlı***

ANALİZ

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

28 sentyabr

## Elm adamlarından sürpriz: Ürəyi izləyən ağıllı köynək hazırlandı!

Elm adamları "narahat" ağıllı saatlar taxmağı sevməyən sağlam həyat tərzi həvəskarları üçün bir həll yolu olduğunu iddia edirlər. Texasdakı Rays Universitetinin mütəxəssisləri maşında yuyula bilən və ürəyi izləyə bilən ağıllı bir köynək hazırlayıblar.

Ultra nazik karbon nanoborulardan olan liflər pambıq liflərə çox bənzəyir. Standart tikiş maşınından keçən adi gündəlik köynəkdəki karbon nanoboru istifadəçinin nəbzini yoxlayır, nəbzi və ürəyin fəaliyyətini izləyərək, davamlı elektrokardioqramı (EKQ) qeyd edir.



"Yaxşı dəri teması, bio uyğunluq və yumşaqlığın birləşməsi karbon nanoboru filamentlərini geyinilə bilən cihazların təbii komponentinə çevirir", -deyə Rays Universitetinin mühəndisi Matteo Pasquali bildirib. Tədqiqatçıların dediyinə görə, liflər metal tellər kimi keçiricidir, lakin yuyula bilir, rahatdır və bədən hərəkətdə olduqda qırılma ehtimalı azdır.

Ürəyi rahat izləməsi üçün köynəyin "əsas şərti" sinə hissədə tam oturmasıdır. Bu yeni kəşf haqqında Amerika Kimya Cəmiyyətinin "Nano Letters" jurnalında ətraflı məlumat dərc edilib.

***Nubar Süleymanova***

## "Ronaldo bunun üçün özünü qurban verdi"

"Mançester Yunayted"in sabiq baş məşqçisi Aleks Fergüsson Kriştiano Ronaldo ilə işlədiyi vaxtlardan danışıb . İngilis klubunun saytında yer alan məlumatda deyilir ki, qocaman məşqçi portuqaliyalı hücumçu haqda müsbət fikirlər səsləndirib: "Çoxları Ronaldonun cərimə zərbələri vurmağı xoşladığını söylədi. Bu oldu, amma sonra müdafiəçilərə qarşı daha yaxşı hərəkət etdi. Ronaldo onların ətrafında vals edə bilərdi. İnanılmaz sürətlə hücum edə bildi. Ən yaxşı olmaq arzusu ilə dünyaya gəldi. Kriştiano bunun üçün özünü qurban verdi.



## Dikdaban ayaqqabıların tarixi və yaranması...



**Müasir moda sənayəsi bizə müxtəlif hündürlükdə və formada olan dikdaban ayaqqabıları təklif edir. Bəs dikdaban ayaqqabılar necə, harada və kim tərəfindən yaradıldı?**

Bizdə olan məlumatlara əsasən ilk olaraq dikdaban ayaqqabılar Qədim Misirə təsadüf edir. Orada əkinçilər lilli torpaqda sürüşməmək üçün ayaqlarına konusvari dikdaban ayaqqabıllar geyinirdilər. Mütəxəssislərin rəyinə görə ilk dikdaban ayaqabıları süvarilər geyinmişdir. Belə ki, dikdabanlar onların ayaqlarının yüyəndə sürüşməyinə icazə vermirdi. Bu 15-ci əsrin sonunda 16-cı əsrin əvvəllərində baş vermişdir. Kişi ayaqqabısında dikdaban belə yaranmışdır. Qadın ayaqqabılarında isə dikdabanlar bir qədər sonra yaranmışdır. Hesab olunur ki, belə dikdabanlar Avropaya İtaliyadan Kraliça Yekaterina Mediçi ilə birlikdə gəlmişdirlər. O, bu dikdaban ayaqqabıları öz toy mərasiminə geyinmişdir

17 -ci əsrin əvvəlində dikdaban ayaqqabıları Fransada aristokrat mühitlərində həm kişilər həm də qadınlar geyinirdilər. Düzdür, dikdaban çox hündür deyildir, kişilərdə enli qadınlarda isə nisbətən ensiz idi.

Rokoko dövrünün zərif fransız dikdaban ayaqqabıları bu günə qədər bizləri valeh edir. Belə dabanın ortasına çəkilmiş (hərdən 15 sm olan) dikdabanlar ayağı vizual olaraq kiçildirdi. Fransız İnqilabı nəinki aristokratiyaya həmçinin də dikdabanlara zərbə vurdu. Yalnız 19-cu əsrin ortalarında dikdabanlar geri döndü. Elə bu vaxtlarda ayaqqabıları sol və sağ ayaqlar üçün fərqli etməyə başlamışdırlar.

20-ci əsrin əvvəllərində dikdabanlar nəzərəçarpacaq dəyişikliklərə uğramayır, lakin daha rahat formada olmağa başlayır. Bu gün, heç bir qarderobu dikdabansız təsəvvür etmək mümkün olmur. Müasir dizaynerlər isə öz aralarında ən fantastik dikdaban yaratmaq üçün yarışırlar.

***Nazlı***

## 484 milyon dollarlıq tədbir

**Hollivud ulduzları Los-Ancelesdəki Film Akademiyası və Elmləri Muzeyinin açılışına axın edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, 484 milyon dollara başa gələn muzey ianələr hesabına qurulub. Kino tarixinin ən unudulmaz anlarını və xatirələrini yaşadacaq muzeyin premyerasında dünyaca məşhurlardan Ladi Qaqa, Nikole Kidman, yeni nəsil müğənni və aktrisa Olivia Rodriqo kimi aktyorlar iştirak ediblər.**

***Ayşən Vəli***



## Mağazadan soyğunçuluq edən şəxs tutulub

**Nəsimi Rayon Polis İdarəsinin 20-ci polis bölməsinə müraciət edən Bakı şəhər sakini Z.Ələkbərov sentyabrın 25-də Moskva prospektində ona məxsus mağazaya gəlmiş bir nəfərin mobil telefonunu açıq talama yolu ilə götürüb qaçdığını bildirib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, soyğunçuluğu törətməkdə şübhəli bilinən Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş H.Salahov polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilərək saxlanılıb. Faktla əlaqədar Cinayət



## "KIA" yolu keçən piyadanı vurub öldürdü

Nərimanov rayonunun Z.Bünyadov prospektində yolu keçən Ucar rayon sakini İlqar Həsənov Bakı şəhər sakini T.Məmmədovun idarə etdiyi "KIA" markalı avtomobillə vurulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Faktla bağlı Nərimanov Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
*"Azərbaycan" nəşriyyatında çap olunur*
*Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**